RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 275 (8868) ŞƏNBƏ, 18 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Qətiyyətli siyasət, dəyişməz mövqe

## İqtisadi əməkdaşlığın daha da genişlənməsi üçün yaxşı potensial var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Ticarət dövriyyəsinin artdığı xüsusi qeyd olundu. İqtisadi əməkdaşlığın daha da genişlənməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Soçi görüşü məmnunluqla xatırlandı.

Aleksey Overçukun səfərinin iqtisadi sahədə əməkdaşlıq üzrə ilin yekunlarının müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı.

Söhbət zamanı Rusiya-Azərbaycan-Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli komissiyanın fəaliyyətinə toxunuldu, kommunikasiyaların açılması və digər məsələlər müzakirə olundu.

Görüşdə Azərbaycanla Rusiya arasında əlaqələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan-Qətər münasibətləri dinamik inkişaf yolundadır. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ənənəvi dostluq əlaqələrimizi genişləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2021-ci il*

## Minimum aylıq əməkhaqqının məbləğinin artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. Minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1102) 1-ci hissəsi ləğv edilsin.

4. Bu Sərəncamın 1-ci və 3-cü hissələri 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

## Brüssel səfəri İlham Əliyevin sözü ilə əməlinin vəhdətinin növbəti nümayişi oldu

Bu həftə bütün diqqətlər Brüsselə yönəldi. Çünki İkinci Qarabağ müharibəsində qalib və məğlub ölkələrin rəhbərləri ilk dəfə Belçikada bir araya gəldi. Düzdür, buna qədər üçtərəfli görüşlər baş tutmuşdu. Amma Brüsseldə Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı təkbətək görüşdə postmüharibə dövrünün reallıqları, nəqliyyat-kommunikasiya məsələlərinin həlli, 10 noyabr bəyanatının həll olunmamış müddəaları müzakirə edilməli idi.

Belçikada 2 görüş baş tutdu. Öncə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə üçtərəfli, sonra təkbətək görüşdə müzakirələr aparıldı.

Noyabrın 26-da Soçidə Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə keçirilən görüşdə olduğu kimi, Brüssel görüşündə də İlham Əliyev qətiyyətli və prinsipial mövqeyini bir daha ortaya qoydu. Qalib Komandan bəyan etdi ki, 10 noyabr bəyanatının müddəaları birmənalı şəkildə icra olunmalıdır. Ermənistanın bir il ərzində ortaya qoyduğu mövqe isə göstərir ki, rəsmi İrəvan bəhanələrlə vaxt uzadır və bununla da dolayısı ilə Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan boyun qaçırır, sülh sazişinin imzalanmasını gecikdirir.

### NATO və Avropa İttifaqı tərəflərə çağırış etdi

Bu bir həqiqətdir ki, regionda təhlükəsizliyin yaranmasında maraqlı olan ölkələr, beynəlxalq təşkilatlar bu istiqamətdə müəyyən addımlar atırlar.

Növbəti addım isə Avropa İttifaqından gəldi. Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirak etmək üçün Brüsselə səfər edən İlham Əliyev mühüm görüşlər keçirdi. Belçikada NATO-nun mənzil-qərargahında alyansın Baş katibi Yens Stoltenberq, Avropa Şurasının Prezidenti Şarl Mişel ilə görüşdə faydalı müzakirələr aparıldı. Azərbaycanın hər iki təşkilatla münasibətlərinin yüksələn xətlə inkişaf etdiyi vurğulandı.

*Ardı 6-cı səh.*

## Azərbaycan mediası üçün yeni başlanğıc

Medianın öz inkişaf yolundan kənara çıxması, idarə olunmayan informasiya xaosunun ziyanları barədə heç danışmağa dəyməz. Ona görə də dünyanın bütün sivil ölkələrində media sahəsində ictimai münasibətlərin tənzimlənməsinə xüsusi diqqət yetirilir. Bu sahədə qanunvericilik normaları zaman-zaman təkmilləşdirilir, müasir dünyamızın çağırışlarına uyğunlaşdırılır.

*Bax: səh. 6*





## Evsiz şəhid ailəsi və qazi qalmayacaq

### Prezidentin bu barədə növbəti fərmanı həssas kateqoriyadan olan digər vətəndaşların da mənzil-məişət probleminin həllinə yönəlib

Azərbaycan dövləti bütün kateqoriyalardan olan vətəndaşlarına diqqət ayırır və qayğıkeşlik göstərir. Bu münasibət həssas kateqoriyadan olan insanlarımızın dolanışığı, mənzillə təminatı, sağlamlığı ilə bağlı həyata keçirilən tədbirlərdə daha aydın görünür. Həmin tədbirlər genişmiqyaslı, çoxşaxəlidir.

*Bax: səh. 5*

## Regionların sənaye potensialından səmərəli istifadə qeyri-neft sektorunun inkişafını sürətləndirib

Prezident İlham Əliyevin apardığı uğurlu islahatlar sayəsində ölkədə yüzlərlə kiçik, orta və iri müəssisə, sənayeni inkişaf etdirmək məqsədilə nəhəng istehsal sahələri olan texnoparklar yaradılıb.

*Bax: səh. 5*



## BMT Baş Assambleyası Azərbaycanın təşəbbüsü və 179 ölkənin dəstəyi ilə vaksinlərə dair qətnamə qəbul edib

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Azərbaycanın təşəbbüsü və 179 ölkənin dəstəyi ilə COVID-19-a qarşı vaksinlərin ədalətli bölgüsü haqqında qətnamə qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi bu barədə öz "Tviter" səhifəsində məlumat yayıb. Məlumatda bildirilir ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi COVID-19-a qarşı mübarizəyə rəhbərliyi davam etdirir.



# Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıdakı təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2022-ci il yanvarın 1-dən orta hesabla 20 faiz artırılsın:

1.1. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı, Gəncə bölməsinin Aparatı;

1.2. Heydər Əliyev Mərkəzi;

1.3. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi;

1.4. Azərbaycanda Atatürk Mərkəzi;

1.5. Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri;

1.6. Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

1.7. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi;

1.8. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu;

1.9. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Aparatı;

1.10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi;

1.11. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi;

1.12. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu;

1.13. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Quba şəhərində "Soyqırımı memorial kompleksi";

1.14. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Aparatı;

1.15. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi;

1.16. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ərazi Maliyyə Hesablaşma Mərkəzi;

1.17. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzi;

1.18. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu;

1.19. Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi;

1.20. İcra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıq.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan qurumlarda çalışan rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən gənclərin çağırışaqədərki hazırlıq və fiziki tərbiyə rəhbərlərinin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları orta hesabla 20 faiz, fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 30 faiz, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən həmin müəssisələrin direktor və direktor müavinlərinin, habelə gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin aylıq vəzifə maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin əməkdaşlarına "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Dövlət Pedaqoji Universitetinin aşağıdakı əməkdaşlarına "Əməkdar müəllim" fəxri adı verilsin:

Abdullayeva Zemfira Kəlpəli qızı
Axundov Asif Əbülfəz oğlu
Babayev Yaqub Məhərrəm oğlu
Bayramov İbrahim Məhəmməd oğlu
Cavadov Təyyar Salam oğlu
Cəfərov Heydər Allahyar oğlu
Daşdəmirov Arzu Oruc oğlu
Əliyeva Şəhla Qasım qızı
Əlizadə Nailə Mustafa qızı
Əlizadə Şükür Həmid oğlu
Fərəcov Araz Salamulla oğlu
Həsənov Vaqif Səməd oğlu
Hüseynova Mahirə Nağı qızı
İlyasov Müseyib İbrahim oğlu
İmanov Ənvər Niftulla oğlu
İsmayılov İsa Namaz oğlu
İsmayılova Mirvari Abbas qızı
Rzayev Fikrət Çinqiz oğlu
Rzayev Rəhim Mikayıl oğlu
Sadıqova Nailə Məmməd Hüseyn qızı
Seyidli Həmzə Səməd oğlu
Səfərov Pərviz Şahin oğlu
Yusifova Anaxanım Əmiralı qızı
Zamanov Asəf Dağbəyi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında müdafiə sənayesinin inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Əliyev Siyavuş Hüseyn oğlu
Quliyev Fəlah Fəxrəddin oğlu
Mustafayev Zahid Seyfəddin oğlu
Tahirov Rasim Firudinoviç

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Əliyev Samir Vidadi oğlu
Fətullabəyli Aytən Məmməd qızı
Qasımov Elçin Ataş oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin əməkdaşlarına "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müdafiə sənayesində uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin aşağıdakı əməkdaşlarına "Əməkdar mühəndis" fəxri adı verilsin:

Mirzəyev Rasim Cəbrayıl oğlu
Musayev Elşən Qədir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Dövlət Pedaqoji Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Cəfərov Cəfər Məmməd oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Cəbrayılov Məlikməmməd Saday oğlu
Əliyev Ramiz İbrahim oğlu
Qarayev Məmməd Abbas oğlu
Quliyev Elman Hilal oğlu
Rüstəmov Fərrux Abbas oğlu
Sultanov Oqtay Balaqədəş oğlu

**"Tərəqqi" medalı ilə**

Abdullazadə Nazilə Əbdül qızı
Allahmanov Mahmud Qara oğlu
Aslanov Eldar İkram oğlu
Əhmədova Naibə Əhmədağa qızı
Əliyev Rəcəb Əhməd oğlu
Əliyev Soltan Hüseyn oğlu
Əliyev Vaqif Kamil oğlu
Hacıyeva Ülviyyə Davud qızı
Həsənova Laçın Xalid qızı
Hüseynov Cahangir İslam oğlu
Kərimova Zülfiyyə Məhərrəm qızı
Qəribova Arifə Hacıbaba qızı
Mehbalıyeva Elnarə Cabir qızı
Məmmədov Razim Əli oğlu
Tağıyeva Zenfira Əsgər qızı
Umudov Qüdrət Umud oğlu
Yusubov Fəxrəddin Allahverdi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# C.Ə.Cəfərova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Cəfər Əsəd oğlu Cəfərova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Azərbaycan ilə Rumıniya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 17-də Rumıniyanın ölkəmizdəki səfiri Vasili Soare ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, səfirə diplomatik fəaliyyətində uğurlar arzulayan Sahibə Qafarova qeyd edib ki, Rumıniya dünyada Azərbaycanın müstəqilliyini tanıyan ikinci, Avropa İttifaqının üzv dövlətləri arasında isə ilk ölkədir. Ötən illər ərzində ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirən Milli Məclisin Sədri bu əlaqələrin siyasi, mədəni, humanitar, iqtisadi və digər sahələri əhatə etdiyini diqqətə çatdırıb. Dövlət başçılarının qarşılıqlı səfərləri və ölkələrimiz arasında əməkdaşlığa dair mövcud olan müqavilə-hüquqi bazanın əlaqələrimizə dinamizm verdiyini diqqətə çatdıran Sədr Azərbaycanla Rumıniya arasında yüksəksəviyyəli münasibətlərin parlamentlərarası əməkdaşlığa da müsbət təsir göstərdiyini deyib. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları uğurla fəaliyyət göstərir. Eyni zamanda parlamentarilərimiz beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq edirlər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən parlaq Qələbədən sonra Azərbaycanın regionda yaratdığı reallıq barədə Rumıniya səfirini məlumatlandıran Milli Məclisin Sədri bildirib ki, işğal dövründə tamamilə dağıdılmış şəhər və rayonlarımızda hazırda genişmiqyaslı quruculuq və bərpa işləri aparılır. Sahibə Qafarova həmçinin ərazilərin minalardan təmizlənməsi, Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində hərbi və mülki vətəndaşların həlak olması, Azərbaycanın regionda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində fəaliyyəti və digər məsələlər barədə məlumat verib. O deyib ki, Azərbaycan çoxkonfessiyalı, multikultural bir ölkədir. Azərbaycan sülhpərvər ölkə kimi, regionda və dünyada daim sülhün təmin olunmasını istəyir.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir Vasili Soare ölkəmizdə fəaliyyət göstərməkdən məmnunluğunu dilə gətirib. O, Azərbaycanın Şərqi Qərblə birləşdirən ölkə olduğunu, Rumıniyanın ölkəmizlə münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirib.

Diplomat Azərbaycan və Rumıniyanın dost ölkələr olduğunu qeyd edib və səfir kimi fəaliyyətində ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə daha da inkişafı üçün səy göstərəcəyini söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanda memarlığın inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Dadaşov Siyavuş Əbdül Xalıq oğlu
Əbdülrəhimov Ramiz Həmid oğlu
İbrahimov Məmməd Hüseyn oğlu

**"Tərəqqi" medalı ilə**

Axundova Sürəyya Əlifağa qızı
Əlizadə Cahid Azər oğlu
Hüseynov Abdul Fikrət oğlu
Hüseynov Emir Fikrət oğlu
Səmədov Rövşən Yaşar oğlu
Turabova Könül Akif qızı
Yusifli Nərmin Oğuz qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Azərbaycanda memarlığın inkişafında xidmətləri olan şəxslərə "Əməkdar memar" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar memar" fəxri adı verilsin:

Axundov Cahangir Rifaətoviç
Hacıyeva Səbinə Xalid qızı
Qasımov Nizami Fikrət oğlu
Qəhrəmanova Şəhla Şex Əli qızı
Məmmədov Kamil Müzəffər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# F.B.Miralayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə Fəxrəddin Böyük oğlu Miralayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Dövlət Pedaqoji Universitetinin aşağıdakı əməkdaşları "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin:

Əliyeva Tinatin Məmməd qızı
Qaraməmmədli Yasin Alı oğlu
Rəsulov Rəis Azər oğlu
Verdizadə Nailə Allahverdi qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2021-ci il*

# Xarici İşlər Nazirliyi 2021-ci ilin yekunlarına dair qəbul təşkil edib

Dekabrın 17-də Gülüstan Sarayında Xarici İşlər Nazirliyi ilin yekunlarına həsr edilmiş qəbul təşkil edib.









AZƏRTAC xəbər verir ki, tədbirdə Xarici İşlər Nazirliyinin rəhbər heyəti, müvafiq qurumlardan yüksəksəviyyəli nümayəndələr, ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəlik və beynəlxalq təşkilatların ofislərinin rəhbərləri iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun duayeni Nasser Abdul Kareem çıxış ediblər

Nazir Ceyhun Bayramov tədbir iştirakçılarını salamlayaraq Azərbaycan Respublikasının 2021-ci il ərzində dövlət başçısının rəhbərliyi ilə həyata keçirdiyi, ölkəmizin milli maraqlarına əsaslanan, müstəqil, dönməz, açıq və praqmatik xarici siyasətindən danışıb. Zəfərimizin, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin birinci ildönümünün qeyd edildiyi cari il ərzində xarici siyasət müstəvisində atılan uğurlu addımlar, o cümlədən Azərbaycan Respublikası Prezidentinin həm milli, həm də beynəlxalq təşkilatlara sədrliyi çərçivəsində irəli sürdüyü təşəbbüslər, həyata keçirilən layihələr, bölgədə münaqişə sonrası sülh quruculuğu istiqamətində atılan konkret addımlar, habelə ikitərəfli və çoxtərəfli müstəvilərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Münaqişə sonrası bölgədə yaranmış yeni reallıqlar müstəvisində Azərbaycanın gələcəyə baxışını tədbir iştirakçıları ilə bölüşən nazir dövlət rəhbəri tərəfindən bu xüsusda bəyan edildiyi kimi, Azərbaycanın bölgədə sülh quruculuğu, sabitlik və dayanıqlı inkişafa hədəfləndiyini vurğulayıb. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən danışaraq, dost və tərəfdaş ölkələrin bərpa və quruculuq prosesində ölkəmizə dəstək olmasını minnətdarlıqla qeyd edib. Azərbaycanın bütün ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək və beynəlxalq platformalarda fəal iştirak etmək siyasətinin qarşıdan gələn ildə də uğurla həyata keçiriləcəyini söyləyən nazir Ceyhun Bayramov diplomatik korpusa səmərəli diplomatik fəaliyyətlərinə görə təşəkkür edib və onları Yeni - 2022-ci il münasibətilə təbrik edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxışında Azərbaycanın digər dövlətlərlə əməkdaşlıq və dostluq münasibətlərinin inkişaf etdirilməsinə daim diqqətlə yanaşdığını və geridə qoyduğumuz bir il ərzində bu əlaqələrin daha da inkişaf etdiyini bildirib.

Prezidentin köməkçisi Azərbaycanın dünya dövlətləri ilə həmrəylik nümayiş etdirərək, COVID-19-a qarşı qlobal mübarizəyə öz töhfəsini verdiyini və bu gün beynəlxalq təşkilatlarda cərəyan edən proseslərin postpandemiya dövründə siyasi və iqtisadi baxımdan daha ədalətli dünya düzəninin qurulmasını zəruri etdiyini vurğulayıb. Hikmət Hacıyev çıxışında qlobal miqyasda üzləşdiyimiz hədə və təhdidlərin universal regional və beynəlxalq təşkilatların çevikliyinin artırılmasının və yeni reallığa uyğunlaşdırılmasının daha da zəruriliyini şərtləndirdiyini bildirib.

Prezidentin köməkçisi Azərbaycanın Cənubi Qafqaz regionunda 30 ilə yaxın davam edən Ermənistanın hərbi işğalına son qoyaraq yeni reallıq yaratdığını və bu gün Azərbaycanın bölgədə regional əməkdaşlıq, kommunikasiyaların açılması, dövlətlərin qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünə hörmət edilməsi prinsiplərinə və məramlarına əsaslanan yeni Cənubi Qafqaz regionunun qurulmasına çalışdığını qeyd edib. Hazırda Azərbaycanın qarşısında azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi və məcburi köçkünlərin geri qaytarılması kimi vacib məsələlər durduğunu bildirib. Bu xüsusda ən böyük maneələrdən birinin mina təhlükəsi olduğunu və bu təhlükənin aradan qaldırılmasında Azərbaycanın beynəlxalq ictimaiyyətin ciddi dəstəyinə ümid etdiyini vurğulayıb. Hikmət Hacıyev Yeni il münasibətilə təbriklərini tədbir iştirakçılarına çatdırıb.

Tədbirdə ölkəmizdəki diplomatik korpus adından çıxış edən diplomatik korpusun duayeni, Fələstin səfiri Nasser Abdul Kareem tədbirdə iştirak edən dövlət rəsmilərini salamlayıb və qəbulun təşkili üçün minnətdarlıq ifadə edib. Geridə qoyduğumuz ildə qlobal səviyyədə üzləşdiyimiz çağırışlardan bəhs edən səfir qarşıdan gələn 2022-ci ilin yeni başlanğıclar üçün qapı olacağını deyib. Səfir Nasser Abdul Kareem ötən ildə baş verən uğurlara istinad edərək, ən önəmli hadisə kimi Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini qeyd edib. İmzalanmış üçtərəfli Bəyanatın yalnız Azərbaycan deyil, bütün bölgə üçün sülh, inkişaf və tərəqqi mərhələsinin əsasını qoyduğunu bildirib. Duayen Yeni - 2022-ci il münasibətilə təbriklərini çatdırıb və Azərbaycan xalqına, hökumətinə və rəhbərliyinə sülh, əmin-amanlıq və rifah arzulayıb.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, yerli və xarici mediaya müsahibələri və iştirak etdiyi regional və beynəlxalq tədbirlər əsasında hazırlanmış video nümayiş etdirilib.

Daha sonra qəbul konsert proqramı ilə davam edib.

# "Media haqqında" qanun layihəsi komitələrin birgə iclasında ikinci oxunuşda müzakirə olunub

Dekabrın 17-də Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin onlayn formatda birgə iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə bir sıra media qurumlarının, KİV rəhbərləri və nümayəndələri iştirak ediblər. İclasın gündəliyinə iki məsələ daxil edilib. Əvvəlcə, "Media haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsi keçirilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ölkədə fəaliyyət göstərən müxtəlif kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə keçirilən müzakirələrin faydalı olacağını bildirib. Qeyd edilib ki, qanun layihəsi birinci oxunuşda Milli Məclisdə müzakirə olunub. Ötən dövrdə bir sıra media orqanları ilə işçi qaydasında görüşlər keçirilib. Eyni zamanda parlamentdə komitə sədrləri və deputatlarla işçi qrupunun üzvləri arasında sənəd ətrafında fikir mübadiləsi aparılıb.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, müzakirəyə çıxarılan qanun media sahəsində islahatların birinci mərhələsini təşkil edir. Təkmil normativ-hüquqi bazanın yaradılması media strategiyası və konsepsiyasının da qəbuluna kömək edəcək, strateji sənədlərin hazırlanması üçün hüquqi əsas yaradacaq. Qeyd olunub ki, hazırda qüvvədə olan qanun ancaq əmək müqaviləsi ilə işləyən ştatlı və ştatdankənar müxbirlərə jurnalist statusunu şamil edir. Yeni layihə isə həm əmək müqaviləsi, həm də mülki hüquq müqaviləsi ilə işləyən jurnalistləri əhatə edir. Heç bir müqavilə bağlamadan, yazılarını özünün veb-saytında yayımlayan şəxs də artıq onlayn-media subyekti kimi fiziki şəxsə çevrilir və onunla münasibətlər media subyektlərinə olan münasibətlər çərçivəsində tənzimlənəcək.

Komitə sədri bloqçuların fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar diqqətə çatdırıb ki, qanun layihəsində bununla bağlı və ümumiyyətlə, sosial şəbəkələrə aid müddəalar yer almayıb. Layihə ancaq peşəkar jurnalistika səviyyəsində olan münasibətləri sağlamlaşdırmağa xidmət edir.

Zahid Oruc layihədə hadisələrin və faktların qərəzsiz və obyektiv şərh olunması tələbi ilə bağlı məsələyə aydınlıq gətirərək deyib ki, sənəddə göstərilən normalar jurnalistin şərhinə deyil, mediada dərc olunan, yayımlanan informasiyalara olan tələbləri nəzərdə tutur. Jurnalistin təhsili ilə bağlı sualla əlaqədar qeyd olunub ki, layihədə ali təhsil tələbi qoyulmayıb. Bu meyar yalnız jurnalist vəsiqəsinin təqdim edilməsi zamanı nəzərə alınacaq.

Jurnalist birliklərinə qadağa qoyulması məsələsi ilə bağlı bildirilib ki, layihədə hər hansı bürokratik əngəl nəzərdə tutulmayıb, əksinə, peşəkar jurnalistlərə lazımi şərait yaratmaq, keyfiyyətli xəbər istehsalını təşviq etmək, xarici informasiya məkanına inteqrasiya olunmaq kimi müddəalar yer alıb.

Komitə sədri öz çıxışında siyasi partiyaların və dövlət orqanlarının media subyekti yaratmaq hüququ ilə əlaqədar layihədə göstərilən normaları da şərh edib. Həmçinin qeyd edib ki, medianın bütün yaş kateqoriyalarına nüfuz etməsini nəzərə alaraq ictimai mənəviyyatın qorunması üçün sənəddə müvafiq normalar da müəyyənləşdirilir. O, açıqlamasında internet televiziyalara dair, ağır cinayət əməlləri törədən, məhkumluğu olan şəxslərin media subyekti olmasına qoyulan qadağa ilə bağlı və bir sıra digər məsələlərə də aydınlıq gətirib. Zahid Oruc parlamentin layihə ilə əlaqədar daxil olan qeyd və təklifləri dəyərləndirməyə hazır olduğunu deyib.

Parlament Sədrinin birinci müavini Əli Hüseynli Milli Məclis rəhbərliyinin, Sədr Sahibə Qafarovanın bu məsələni diqqətdə saxladığını söyləyərək, parlamentin media ilə sıx münasibət qurduğunu, səmərəli müzakirələrin aparılmasında maraqlı olduğunu diqqətə çatdırıb.

İclasda iştirak edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov çıxışında "Media haqqında" qanun layihəsinin zamanın tələblərinə uyğun vacib sənəd olduğunu söyləyib. Onun sözlərinə görə, yeni qanun layihəsinin əsas üstünlüyü ondan ibarətdir ki, "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında" qanunlar vahid bazada birləşdirilib, mətbuat sahəsində indiyədək müşahidə olunan boşluqlar tam aradan qaldırılıb. Digər vacib məqama gəldikdə isə, bu layihədə media sahəsində fəaliyyətin təşkilati, hüquqi, iqtisadi əsasları, kütləvi informasiyanın əldə edilməsi, istehsalı və yayımının ümumi qaydaları dəqiq şəkildə müəyyənləşdirilib.

Aslan Aslanov qeyd edib ki, qanun layihəsi ölkəmizdə son 20 ildə toplanmış təcrübəni, informasiya texnologiyalarının müasir səviyyəsini nəzərə almaqla hazırlanmış mükəmməl bir sənəddir. Qanunun qəbul olunması ölkəmizdə medianın inkişafına, mətbuat və söz azadlığına güclü təkan olmaqla yanaşı, vətəndaş cəmiyyəti quruculuğuna töhfə verəcək, jurnalist məsuliyyətinin artırılmasında xüsusi rol oynayacaq.

Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxışında qanun layihəsinin əhəmiyyətindən danışıb, sənədin medianın bütün sahələrini əhatə etdiyini deyib. Qeyd edib ki, ölkəmizdə KİV sahəsində qanunvericiliyə müxtəlif vaxtlarda edilmiş dəyişikliklər onun informasiya-kommunikasiya texnologiyalarına, xüsusən internetin intensiv tətbiqinə uyğunlaşdırılması məqsədi daşıyıb.

Onlayn iclasda deputatlardan Fazil Mustafa, Ekrin Qədirli, Elşad Mirbəşir oğlu, "Vision" İnternet Televiziyasının icraçı direktoru Şöhrət Eldəniz, "Report" İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyev, "Xəzər" TV-nin baş direktoru Murad Dadaşov, "Real" TV-nin baş direktoru Mirşahin Ağayev, "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "APA Group"un baş direktoru Vüsalə Mahirqızı, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Respublika" qəzetinin baş redaktoru Hümbət Musayev, "Media" Təhlil Mərkəzinin nümayəndəsi Fərqan Novruzov, ATV-nin rəhbəri Azər Xəlilov, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, İTV-nin baş direktoru Balakişi Qasımov çıxış edərək qanun layihəsi barədə fikirlərini söyləyiblər, sənədin ayrı-ayrı maddələrinə dair qeyd və təkliflərini veriblər.

Toplantıda iştirak edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov çıxışlarda səsləndirilən fikirlərə münasibət bildiriblər, qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda "Media haqqında" qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra onlayn iclasda Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinə (birinci oxunuş) baxılıb. Bildirilib ki, qanun layihəsi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna təklif edilən dəyişikliklərə uyğun olaraq hazırlanıb. Layihədə yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması üçün məhkəməyə müraciət edilməsi istiqamətində dəyişikliklər təklif olunur.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Azərbaycan ilə Belarus arasında əməkdaşlıq gündəliyinin aktual məsələləri müzakirə edilib

Dekabrın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Belarus Respublikasının xarici işlər naziri Vladimir Makey arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycan ilə Belarus arasında əməkdaşlıq gündəliyinin aktual məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Həmçinin ikitərəfli əməkdaşlığın inkişafı perspektivlərini müzakirə ediblər.

Vladimir Makey Şərq Tərəfdaşlığının VI Sammitinin nəticəsinə dair qəbul olunan birgə Bəyannamədə Belarusla bağlı bəndə dair Azərbaycanın nümayiş etdirdiyi beynəlxalq hüquqa əsaslanan konstruktiv yanaşmaya görə təşəkkürünü ifadə edib.

Nazirlər həmçinin regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Milli Məclis komitələrinin birgə iclası keçirilib

Dekabrın 17-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Hüquq siyasəti və dövlət quruculuğu, Gənclər və idman komitələrinin birgə iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclası açan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəlik barədə məlumat verərək bildirib ki, komitələrin birgə iclasının gündəliyinə çıxarılmış 15 məsələdən ilk 12-si parlamentə eyni zərfdə daxil olub.

Komitə sədri deyib ki, bir-biri ilə bağlı olan bu dəyişikliklər "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 yanvar tarixli Sərəncamına uyğun olaraq lotereyalar və idman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi çərçivəsində hazırlanıb. Qeyd olunub ki, lotereya və idman mərc oyunlarının oynanılması formaları və texnologiyaları dünyada getdikcə inkişaf etməkdə və yayılmaqdadır. Azərbaycan vətəndaşlarının xarici lotereya və idman mərc oyunlarında aktiv iştirakının milli iqtisadiyyata və büdcəyə təsirindən danışan Tahir Mirkişili bu sahənin tənzimlənməsinin aktual olduğunu vurğulayıb. Komitə sədri təklif olunan qanun zərfinin istiqamətləri, yenilikləri barədə məlumat verib, lotereyalar və idman mərc oyunları sahəsində vergitutma ilə bağlı təklif olunan dəyişiklikləri şərh edib.

Sonra iqtisadiyyat nazirinin müavini Rövşən Nəcəf təklif olunan dəyişikliyi şərtləndirən amillər barədə danışıb. Dünyada lotereya və idman mərc oyunları sahəsində yaranan yeni trendlərə diqqət çəkib. O, çıxışında "Lotoreyalar haqqında" qanunda və müvafiq normativ-hüquqi aktlarda təklif olunan təkmilləşdirmələrin əsas məqamlarından söz açıb.

Dəyişiklik zərfində ikinci mühüm istiqamət olan "Bədən tərbiyəsi və idman haqqında" qanuna dəyişikliklə bağlı Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev məlumat verib. Bildirib ki, Prezident İlham Əliyevin 2021-ci il 16 yanvar tarixli Sərəncamından irəli gələn məsələlərlə əlaqədar "Bədən tərbiyəsi və idman haqqında" qanuna dəyişikliklər təklif olunub. Adil Əliyev qeyd edib ki, ümumilikdə təklif edilən dəyişikliklər özündə bədən tərbiyəsi və idmanın təbliği, təşviqi, iqtisadiyyata verəcəyi töhfə, idman mərc oyunları sahəsində münasibətlərin daha da dəqiqləşdirilməsi məqsədi daşıyır.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Bədən tərbiyəsi və idman haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Şöbə müdiri təklif olunan dəyişikliklərdəki yeni anlayışlar, yeni platformalar, təklif olunan tələblər barədə izahat verib, idman mərc oyunları sahəsində dövlət nəzarətinin gücləndirilməsi, eyni zamanda idarəetmənin daha da təkmilləşdirilməsi baxımından öz əksini tapan müddəalara aydınlıq gətirib. Qeyd edib ki, idman mərc oyunlarının keçirilməsindən əldə edilən gəlirdən təyinatı üzrə istifadənin səmərəliliyinin artırılması məqsədilə sosial əhəmiyyətli layihələrə maliyyə dəstəyinin göstərilməsi də nəzərdə tutulub.

Daha sonra "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlara edilən dəyişikliklərdə müəyyən edilən tələblərin pozulması ilə bağlı İnzibati Xətalar, Mülki və Cinayət məcəllələrinə təklif edilən sanksiyalarla bağlı parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Seyid Hacı Mirhəşim məlumat verib. Şöbə müdiri vurğulayıb ki, dəyişikliklər lotereyalar və idman mərc oyunları sahəsində münasibətlərin yeni tənzimlənmə qaydalarının müəyyən edilməsi, yeni normaların yaradılması və mövcud normaların təkmilləşdirilməsi məqsədilə irəli sürülüb.

İclasda çıxış edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dəyişiklik zərfinə daxil olan qanun layihələri barədə ümumiləşdirmə aparıb. Əli Hüseynli qanun layihələrinin ümumi konsepsiyasını müsbət qiymətləndirib, yeni tənzimləmə qaydalarının bu sahədəki kölgə iqtisadiyyatının məhdudlaşdırılmasına xidmət etdiyini bildirib.

Qanun layihələrinin müzakirəsində komitələrin sədr müavinləri Qüdrət Həsənquliyev, Əli Məsimli, Şahin İsmayılov, deputatlar Erkin Qədirli, Vahid Əhmədov, Şahin Seyidzadə, Elnur Allahverdiyev, Vüqar Bayramov, Sevinc Hüseynova, Aydın Hüseynov, Elşən Musayev çıxış ediblər, fikirlərini səsləndiriblər, rəy və təkliflərini irəli sürüblər. Deputatlar sözügedən sahədə dövrün çağırışlarına uyğun idarəetmənin təkmilləşdirilməsinin və dövlət nəzarətinin gücləndirilməsinin vacibliyini bildiriblər, təklif olunan tənzimləmə mexanizmlərini təqdir ediblər.

İqtisadiyyat nazirinin müavini Rövşən Nəcəf və OMNİ hüquq şirkətinin nümayəndəsi İsmayıl Zərgərli deputatları düşündürən məqamlara aydınlıq gətiriblər, onların suallarını cavablandırıblar.

Müzakirələrin sonunda dəyişikliklər zərfinə daxil olan qanun layihələri - İnzibati Xətalar, Mülki, Cinayət, Vergi məcəllələrində, "Lotereyalar haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Lisenziyalar və icazələr haqqında", "Atçılıq haqqında", "Reklam haqqında", "Dövlət satınalmaları haqqında", "Telekommunikasiya haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunub.

İclasın sonunda komitə sədri Tahir Mirkişili "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini, "Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair 2009-cu il mayın 29-da imzalanmış AZB-P4 nömrəli Kredit Sazişinə Dəyişiklik Məktubu"nun təsdiq edilməsi haqqında qanun layihəsini və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi və "KfW" arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "Samur-Yalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsinə düzəlişin təsdiq edilməsi haqqında qanun layihəsini müzakirəyə çıxarıb. Deputatlar hər üç qanun layihəsini Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

İclasda deputatlar Mahir Abbaszadə, Məzahir Əfəndiyev, Anar Məmmədov, İqbal Məmmədov, Məşhur Məmmədov, Ziyad Səmədzadə, Kamal Cəfərov, Nurlan Həsənov, Vüqar İskəndərov, Tahir Kərimli, Bəhruz Məhərrəmov, Jalə Əhmədova, Ramil Həsən, Ülvi Quliyev, Könül Nurullayeva, Cavid Osmanov, İqtisadiyyat Nazirliyinin məsul əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

# Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası olub

Dekabrın 17-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, komitə sədri Sadiq Qurbanov iclası açaraq gündəliyə iki məsələnin daxil edildiyini bildirib. Diqqətə çatdırıb ki, gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (YBƏA) arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair 2009-cu il mayın 29-da imzalanmış AZB-P4 nömrəli Kredit Sazişinə Dəyişiklik Məktubu"nun təsdiq edilməsi haqqında qanun layihəsidir. Sənədin müvafiq maddəsinə əsasən, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və borcalan arasında digər formada razılaşdırılmadığı halda Kredit Sazişi üzrə son istifadə qüvvəyə minmə tarixindən etibarən 30 dekabr 2021-ci ilədək yerinə yetirilir. İstifadə müddəti başa çatandan sonra YBƏA tərəfindən heç bir növbəti istifadə üzrə ödəniş həyata keçirilmir. Dəyişiklikdə əsas məqam vaxtın uzadılmasından ibarətdir.

Sonra iclasda gündəliyin ikinci məsələsi - Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi və "KfW" arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "Samur-Yalama Milli Parkının yaradılması" layihəsi müzakirəyə çıxarılıb. Qeyd edilib ki, sənəd Maliyyələşdirmə Müqaviləsinə dəyişiklik edilməsi ilə bağlıdır. Dəyişiklikdə deyilir ki, "KfW", 2026-cı il dekabrın 30-dan sonra ödəniş etməkdən imtina etmək hüququna malikdir. Lakin resipient vəsaitlər üçün ödənişləri vaxtlı-vaxtında həyata keçirməklə bağlı "KfW" qarşısında götürdüyü öhdəlikləri yerinə yetirə bilmirsə, verilmiş bütün vəsaitlərin razılaşdırılmış məqsəd üçün istifadə etdiyini sübut edə bilmirsə və proqramda göstərilən digər hallar istisna olmaqla ödənişləri dayandıra bilməz.

İclasda Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Asim Mollazadə, komitə üzvləri İltizam Yusifov, Anar Məmmədov, Afət Həsənova, Nəsib Məhəməliyev, Fatma Yıldırım əhalinin içməli su ilə təminatı, çirkab suların təmizlənməsi, tullantıların idarə olunması, təhlükəli tullantıların emalı və məhv edilməsi, Xəzər dənizinə axıdılan çirkab suların qarşısının alınması və digər məsələlərlə bağlı fikirlərini bölüşüblər.

Müzakirələrin sonunda gündəliyə daxil edilən hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda deputatlar Məşhur Məmmədov, Naqif Həmzəyev, Mixail Zabelin və Əliabbas Salahzadə iştirak ediblər.

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi qeyd edilib





Dekabrın 17-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) 100 illik yubileyi qeyd olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Milli Məclisin deputatları, dövlət və hökumət rəsmiləri, elmi ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Yubiley mərasimində çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov Prezident İlham Əliyevin "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamında ADPU-nun zəngin və məhsuldar inkişaf yoluna xüsusi qiymət verildiyini diqqətə çatdırıb. Son illər ərzində ali təhsil müəssisəsində görülən işlərdən və aparılan islahatlardan, əldə olunan nəticələrdən danışıb.

Rektor bildirib ki, müstəqillik dönəmində ADPU-nun yubileyləri keçirilib. Amma ilk dəfədir ki, yubiley tədbirini təcavüzkar Ermənistanı diz çökdürmüş qalib dövlətin vətəndaşları kimi, torpaqları işğaldan azad olunmuş qalib xalqın nümayəndələri kimi böyük sevinc və iftixarla qeyd edirik. Bu sevinci, bu qüruru bizə yaşadan Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz olub. Fəxr edirik ki, misli görünməmiş Zəfərin qazanılmasına universitetimizin tələbə və məzunları da töhfə veriblər. Yetirmələrimizdən təqribən 200 nəfəri ön cəbhədə vuruşub, onlarca məzunumuz qazi olub, 12 nəfər şəhidlik zirvəsinə yüksəlib.

1921-ci ildə cəmi 6 tələbə və 8 müəllimlə Ali Pedaqoji Kişi İnstitutu adı altında fəaliyyətə başlayan universitetimiz bu gün 18600 nəfərdən çox tələbəsi, 1684 nəfərlik professor-müəllim və inzibati-texniki heyəti ilə ölkənin ikinci böyük ali təhsil ocağına çevrilib. Son 100 ildə ADPU-nu 160 mindən çox tələbə bitirib ki, onlar da istər təhsil, istərsə də digər sahələrdə Azərbaycanın ümumi inkişafına, sosial-iqtisadi və mədəni tərəqqisinə kifayət qədər sanballı töhfələr veriblər.

Son illər cəmiyyət həyatının bütün sahələrində aparılan köklü və sistemli islahatlar təhsil sahəsində də özünü göstərib. İslahatlar, ilk növbədə, təhsilin bütün pillələrində məzmun və bazanın yenilənməsinə, yüksək intellektli, geniş dünyagörüşlü, yaradıcı təfəkkürlü, praktik səriştəli və vətənpərvər ruhlu gənclərin yetişdirilməsinə yönəlib. Sadalanan istiqamətlərin hər birində nisbətən qısa zaman kəsiyində nəzərəçarpacaq dəyişikliklər baş verib, danılması mümkün olmayan uğurlar qazanılıb.

İcrası bu il başa çatan strateji inkişaf planımıza uyğun olaraq, məzmunun yenilənməsi, tədris və imtahan prosesinin maksimum şəffaflaşdırılması, yeni nəsil təhsil proqramlarının hazırlanması, elmi-tədqiqatların səmərəliliyinin artırılması, beynəlxalq əlaqələrin genişləndirilməsi və infrastrukturun təkmilləşdirilməsi vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olmaq əsas hədəflərimizdən olub.

Son illər Azərbaycan Dövlət Pedaqoji Universitetində bir neçə yeni layihənin icrasına başlanılıb. Bunlardan birincisi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ABŞ-ın Corc Vaşinqton Universiteti ilə uğurla davam edən ikili diplom proqramıdır. Hazırda 50 gəncin magistratura təhsili aldığı bu proqram üzrə cari tədris ilinin sonunda ilk məzun buraxılışı olacaq, növbəti ildən isə qəbul planını 25 nəfərdən 40 nəfərədək artırmaq nəzərdə tutulur. Razılıq hissilə deyə bilərəm ki, proqram bizə dünyaca məşhur Corc Vaşinqton Universitetinin təhsil elmləri sahəsindəki zəngin təcrübəsindən faydalanmaq üçün geniş imkanlar yaradır.

Məzmunun yenilənməsi və müəllimlərin bacarıqlarının artırılması sahəsində Təhsil Nazirliyinin dəstəyi ilə "Tvinninq" layihəsi çərçivəsində 4 ixtisas pilot olaraq akkreditasiyadan keçirilib. Təhsil İnstitutu ilə birgə 3 ixtisasın məzmunu yenilənib. Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə inklüziv təhsil layihəsi çərçivəsində müəllimlər üçün təlimlər təşkil olunub, müvafiq dərslik xarici dildən tərcümə və çap edilib. 2020-ci ildən etibarən bütün ixtisaslar üzrə "İnklüziv təhsil" fənni tədris planına daxil edilib. Təhsil Nazirliyi və Təhsil İnstitutunun köməyi ilə müəllimlərimiz STEAM təlimi alıb, müvafiq STEAM laboratoriyaları yaradılıb və STEAM dərsləri 8 ixtisas üzrə tədris planına salınıb. ABŞ səfirliyi və Azərbaycan Müəllim İnkişaf Mərkəzi ilə birlikdə ingilis dili müəllimləri üçün TKT təlimləri keçirilib, müəllimlərin işə qəbulunda seçki mexanizminin real tətbiqi sayəsində yeni təfəkkürlü gənc müəllimlər universitetə daha geniş şəkildə cəlb edilib və sair tədbirlər yerinə yetirilib. Hazırda ADPU-da 22 ixtisas üzrə Azərbaycan bölməsi ilə yanaşı, son illər ixtisas sayı 3-dən 10-a çatdırılan rus bölməsi də fəaliyyət göstərir. Eyni zamanda cari tədris ilində bakalavr səviyyəsində ibtidai sinif və riyaziyyat müəllimliyi ixtisasları üzrə ingilis bölməsi açılıb.

Ali məktəbin əsas reytinq göstəricilərindən birincisi yetirmələrinin əmək bazarında yer tapmasıdır. Bu baxımdan son illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunlarının müəllimlərin işə qəbulu (MİQ) və magistraturaya qəbul imtahanlarında göstərdikləri nəticələri qənaətbəxş saymaq olar.

Ötən tədris ilində ADPU-dan bakalavr səviyyəsində 2119 nəfər məzun olub. Məzunlarımızın 873-ü magistraturaya imtahan verib, onlardan 353-ü yetərincə bal toplayaraq qəbul olunub. Bu il ADPU məzunlarının MİQ imtahanlarındakı nəticələri də uğurlu olub. Belə ki, magistraturaya qəbul olanlar və hərbi xidmətə yollananlar istisna olmaqla, universiteti bitirmiş 2119 bakalavrdan 1306-sı həmin imtahanlarda iştirak edib, onlardan 1089 nəfəri 30-dan yuxarı bal toplayıb. Qəbul olanlardan 530 nəfər 40-60, 184 nəfər isə 50-60 bal yığaraq yüksək nəticə göstərib. Cəmi bir neçə il əvvəllə müqayisədə bu göstərici bəzi ixtisaslar üzrə 4-5, bəzilərində isə 7-8 dəfə yaxşılaşma deməkdir.

Yubiley başa vurduğumuz 100 ilə və xüsusən də cari vəziyyətə baxaraq nəticə çıxarmaqla yanaşı, həm də gələcək üçün ciddi planlar qurmaq vəzifəsini qarşıya qoyur. Sözsüz ki, ADPU-nun mövcud vəziyyətində də müasir pedaqogikanın və təhsil elmlərinin ortaya çıxardığı ciddi tələblər, dəyişilməsi, müasirləşməsi tələb olunan kifayət qədər işlər var. Elm, təhsil və texnologiyaların misli görünməmiş sürətlə inkişaf etdiyi XXI əsrdə milli-mənəvi dəyərlərə bağlı, Vətənə və dövlətə sadiq, yaradıcı təfəkkürlü və müasir dünyagörüşlü, dərin savadlı və praktik səriştəli, rəqəmsal və xarici dil biliklərinə sahib olan gənc mütəxəssislər və fəal vətəndaşlar yetişdirmək əsas hədəflərimizdəndir. Biz çalışırıq ki, yetirmələrimiz elmi-texnoloji nailiyyətləri dərindən mənimsəsinlər, lakin hazır məhsula aludə olmasınlar, onun yalnız istehlakçısı deyil, həm də istehsalçısı olmağa səy göstərsinlər. Hazırda qarşıda duran mühüm vəzifələrdən biri universitetimizin 2030-cu ilədək Strateji inkişaf planını müasir dövrün tələbləri nəzərə alınmaqla hazırlamaqdan və icra etməkdən ibarətdir. İnanıram ki, dövlətimizin dəstəyi ilə ADPU öz mövcudluğunun ikinci yüzilliyinə daha inamla və qlobal çağırışlara daha hazırlıqlı şəkildə daxil olacaq.

Tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev vurğulayıb ki, Pedaqoji Universitetin ölkədə istər təhsil, istərsə də elmin inkişafında müstəsna rolu olub. Universitetin məzunları həm təhsil, həm də çalışdıqları digər sahələrdə ölkənin ümumi inkişafına, sosial-iqtisadi və mədəni tərəqqisinə kifayət qədər sanballı töhfələr veriblər.

Nazir universitetin əldə etdiyi uğurlardan, habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ADPU-nun ABŞ-ın Corc Vaşinqton Universiteti ilə uğurla davam edən ikili diplom proqramının əhəmiyyətindən danışıb. Həmçinin ADPU-ya tələbə qəbulunun, eləcə də universitetin məzunlarının müəllimlərin işə qəbulu imtahanlarının nəticələrinin yüksək olduğunu bildirib.

Emin Əmrullayev deyib: "Son illər istər müəllimlərin işə qəbulu müsabiqəsi, istərsə də müəllimlik ixtisasına qəbulda statistik rəqəmlər artıb. MİQ vasitəsilə işə qəbul olan müəllimlərin sayı 18 min nəfərdən təxminən 55-56 min nəfərə çatıb, yəni bu rəqəm 3 dəfə artıb. Bu da daha artıq rəqabətqabiliyyətli və keyfiyyətli müəllim seçmək imkanı yaradıb. Müəllimlik ixtisasının formatının və mənasının dəyişməsi çox vacibdir. XXI əsr müəlliminə XX əsr müəllimində olan bacarıqlarla yanaşı, əlavə bacarıqlar da tələb olunur, artıq yeni bacarıq tələbləri də var".

Nazir vurğulayıb ki, ali məktəbin məzunlarının bir qismi fəaliyyətini işğaldan azad edilmiş ərazilərdə davam etdirəcək. Bu, yeni nəslin hazırlanması baxımından vacib və ümidverici məqamdır.

Daha sonra çıxış edən ADPU-nun gənc müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Səbinə Əlizadə, universitetin IV kurs tələbəsi İsmayıl Nəsirov ADPU-nun təhsil sahəsindəki rolundan söz açıb, professor-müəllim heyətini təbrik edərək uğurlar arzulayıblar.

Mərasimdə ADPU-nun 100 illiyinə həsr edilmiş film nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib.

# Dövlət başçısının imzaladığı yeni sərəncamlar 1 milyona yaxın vətəndaşın rifahına dəstəkdir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Kollegiya iclası keçirilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin dekabrın 17-də imzaladığı sərəncamlarla ölkəmizdə sosial islahatların yeni mərhələsinə başlanıldığını, imzalanan həmin sərəncamların əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin artırılması istiqamətində növbəti mühüm addımların atılmasını təmin etdiyini bildirib.

Nazir qeyd edib ki, dövlət başçısının imzaladığı yeni sərəncamlarla minimum əməkhaqqı gələn ilin əvvəlindən 250 manatdan 300 manata çatdırılır, bu artım 800 min işçinin maaşının artması deməkdir. Həmçinin dövlət ümumi və peşə təhsili müəssisələrində çalışan 165 min işçinin, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda işləyən 4 min nəfərin də maaşı artırılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, dekabrın 17-də imzalanan sərəncamlar, ümumən, 1 milyona yaxın insanın sosial rifahına dəstəkdir.

S.Babayev vurğulayıb ki, ölkəmizdə son 4 ildə sosial ödənişlərdə baş verən ciddi artımların mühüm bir istiqaməti əməkhaqları ilə bağlıdır. Hazırkı artım da nəzərə alındıqda minimum əməkhaqqında artım bu dövrdə 2,3 dəfə təşkil edib. Habelə orta aylıq əməkhaqqında 37 faiz, median əməkhaqqında 74 faiz artım olub.

Qeyd olunub ki, əmək müqavilələrinin sayı son 4 ildə 30 faiz artıb.

Bütün bu müsbət proseslər nəticədə son 4 ildə əməkhaqqı fondunda da 92 faiz artıma imkan verib və bu göstərici gələn il daha da artacaq.

Ümumilikdə Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il oktyabrın 16-da imzaladığı Sərəncamı ölkəmizdə sosial islahatların yeni mərhələsinə başlanılmasına təminat yaradıb. İslahatların yeni mərhələsi 2,1 milyondan çox şəxsi əhatə edəcək və bu islahat mərhələsi üçün illik əlavə 1,5 milyard manat vəsait də nəzərdə tutulub.

İclasda 2022-ci il üçün istehsalat təqviminin təsdiq edilməsi, Qəbələ və Şəmkir rayonlarında Uşaq Reabilitasiya mərkəzlərinin yaradılması, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində görülən işlər, qarşıda duran vəzifələr müzakirə olunub.

## Minimum əməkhaqqı 300 manata çatdırılıb, vahid tarif cədvəli üzrə işləyənlərin əməkhaqqı artırılıb

Ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsinə başlanılıb. Prezident İlham Əliyevin imzaladığı yeni sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırılır.




Sərəncam 2022-ci il yanvarın 1-dən tətbiq ediləcək.

Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri də bu sərəncama uyğunlaşdırılacaq. Minimum əməkhaqqının artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə artımlara imkan verəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqının artımı 800 min nəfərə şamil olunacaq. Dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min işçinin mövcud əməkhaqları yanvar ayından artacaq.

Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir.

Bu artım son üç ildə sosial sahədə inqilabi xarakter alan, bütün istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların davamıdır. Dövlət başçısının sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb. Son üç ildə mühüm irəliləyiş olaraq ölkəmizdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb.

Minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, əmək bazarındakı proseslərə müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, eyni zamanda əməyin leqallaşdırılmasını stimullaşdırır.

Gələn il minimum əməkhaqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) da 43 faiz üstələyəcək. Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək. Son üç ildə həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildə 33,3 faizə, 2020-ci ildə 38 faizə yüksəlib, 2022-ci ildə isə təqribən 40-41 faiz səviyyəsinə yüksələcək.

Bununla da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində daha bir irəliləyişə nail olunur.

## Əməkhaqları Vahid Tarif Cədvəli ilə tənzimlənməyən təşkilatlarda çalışanların da maaşları artırılıb

Prezident İlham Əliyevin yeni imzaladığı "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Sərəncam 2022-ci ilin yeni sosial paketinin tərkib hissəsidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, sərəncam dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçiləri əhatə etməklə onların sosial rifahının yaxşılaşdırılmasına xidmət edir.

Həmin təşkilatlarda çalışanların maaşları 2022-ci il yanvarın 1-dən orta hesabla 20 faiz artırılacaq. Bu məqsədlə dövlət büdcəsindən 9 milyon manat illik əlavə vəsait nəzərdə tutulub. Həmin təşkilatlarda ümumilikdə 4 min nəfər çalışır.

## Yeni əməkhaqqı artımı 165 min təhsil işçisini əhatə edir




Prezident İlham Əliyevin imzaladığı yeni iki sərəncam ölkəmizdə təhsil işçilərinin sosial müdafiəsinə diqqət və qayğı göstərilməsinin növbəti təzahürüdür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, sərəncamlarla 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40 faiz artırılır.

Həmçinin 2022-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40 faiz, fiziki tərbiyə rəhbərlərinin maaşları orta hesabla 30 faiz artırılır.

Təhsil müəssisələrində çalışanların əməkhaqqı artımı 165 min təhsil işçisinə şamil olunmaqla, onların sosial müdafiəsinini gücləndirilməsi məqsədi daşıyır. Artımların edilməsi məqsədilə dövlət büdcəsində 273 milyon manat illik əlavə vəsait nəzərdə tutulub.

2022-ci ilin sosial islahatları dövlət başçısının "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il oktyabrın 16-da imzaladığı Sərəncama əsasən reallaşdırılır. Yeni ildən tətbiq ediləcək həmin islahatlar üçün illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. İslahatlar 2,1 milyondan çox şəxsi əhatə edəcək.

## Vahid Tarif Cədvəli üzrə əməkhaqqı artırılan işçilər kimlərdir?

Prezident İlham Əliyevin yeni sərəncamı ilə 2022-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqının 300 manata çatdırılması ilə əlaqədar əməkhaqları Vahid Tarif Cədvəli (VTC) əsasında tənzimlənən işçilərin maaşları da həmin artıma uyğun olaraq orta hesabla 20 faiz artırılacaq.




Bu məqsədlə Nazirlər Kabineti həmin işçilərin tarif (vəzifə) maaşlarını minimum əməkhaqqı artımına uyğunlaşdırılmış şəkildə, əməyin ödənilməsinin dərəcələri üzrə artımlarla ifadə edən yeni cədvəli təsdiq edəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, gələn ilin əvvəlindən tətbiqinə başlanacaq həmin cədvəldə işçilərin maaşları hər bir dərəcə üzrə artırılmış məbləğlərdə əksini tapacaq. Həmçinin cədvəldə büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri də artırılacaq.

Əməkhaqları VTC əsasında ödənilən işçilərin sırasına dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışanlar daxildir.

Həmçinin dövlət orqanlarında çalışan, lakin dövlət qulluqçusu olmayan işçilərin maaşları da aidiyyəti dövlət orqanlarının kateqoriyaları üzrə müvafiq intervalda artacaq.

Yeni il yanvarın 1-dək qüvvədə olan mövcud 19 pilləli VTC üzrə əməkhaqlarının minimal həddi 250, maksimal həddi 906 manatdır. Təsdiqlənəcək yeni cədvəldə həmin göstəricilərdə minimum əməkhaqqı artımına uyğun artımlar olacaq.

# Azərbaycan Memarlar İttifaqının 85 illiyi qeyd olunub

Dekabrın 17-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Memarlar İttifaqının 85 illiyinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə, tədbir iştirakçıları Muğam Mərkəzinin foyesində Azərbaycan memarlarının layihələrindən ibarət sərgi ilə tanış olublar.

Dövlət himni səsləndirilməsi və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayan yubiley tədbirində Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, professor Elbay Qasımzadə çıxış edərək qurumun tarixindən danışıb. Bildirib ki, 1934-cü ildə Azərbaycan memarlarının birinci qurultayını keçirmək üçün təşkilat komitəsi yaradılıb və 1936-cı ilin mart ayında ittifaqın ilk təsis qurultayı olub.

"Bu gün müstəqil Azərbaycan iqtisadi cəhətdən çox inkişaf edib. Ötən müddət ərzində paytaxtımızın siması çox dəyişib. Yeni parklar salınır, binalar tikilir, şəhər gündən-günə gözəlləşir. Bütün bunlar Prezident İlham Əliyevin diqqət və qayğısının göstəricisidir", - deyə E.Qasımzadə vurğulayıb.

Ötən 85 ildə Azərbaycan memarlarının dünya memarlıq sənətinə çox gözəl əsərlər bəxş etdiyini söyləyən Elbay Qasımzadə qeyd edib ki, Azərbaycan memarlarının əsərləri yalnız respublikamızda deyil, dünyada da tanınır: "Keçmiş SSRİ məkanında kifayət qədər nüfuzlu mütəxəssislər kimi ad qazanan Azərbaycan memarları arasında uzun müddət ölkənin Memarlar İttifaqına rəhbərlik edən akademik Mikayıl Useynovun xidmətləri əvəzsizdir. O dövrdə Azərbaycandan memar ixtisaslı yeganə Sosialist Əməyi Qəhrəmanı da məhz Mikayıl Useynov olub. Bu həm də Azərbaycan memarlığının beynəlxalq səviyyədə nüfuzunun göstəricisidir. Bu gün bizim istedadlı, gənc memarlarımız var və onlar bu sənəti bizdən sonra da yaşadacaqlar".

E.Qasımzadə həmçinin diqqətə çatdırıb ki, müasir dövrdə Azərbaycan memarlığı və şəhərsalması dövlət siyasətinin ayrılmaz bir hissəsi olmaqla Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir.

Mədəniyyət naziri Anar Kərimov yüksək adlara layiq görülmüş memarları təbrik edərək, onlara yaradıcılıq nailiyyətləri arzulayıb. "Memarlıq sənəti dünyanın inkişafını göstərən bir dəyərdir. Azərbaycan memarlıq sənəti onu göstərir ki, ölkəmizdə inkişaf etmiş sivilizasiya mövcud olub. Yüksək inkişaf etmiş Azərbaycan memarlıq sənəti bu gün də uğurla davam edir. Ulu Öndər Heydər Əliyev memarlarımıza böyük diqqət göstərirdi. Bu gün bu ənənələr Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən davam etdirilir. Otuz il işğal nəticəsində ermənilər tərəfindən memarlıq nümunələrimiz dağıdılıb. İndi qarşımızda bu memarlıq nümunələrini bərpa etmək kimi mühüm vəzifələr durur. İstərdik ki, gənc memarlar bu işdə fəal iştirak etsinlər", - deyə nazir bildirib.

Bu gün Azərbaycan Memarlar İttifaqının beynəlxalq memarlar ailəsinin fəal üzvlərindən olduğunu deyən nazir vurğulayıb ki, memarın istedadı, yaradıcılıq qabiliyyəti olmazsa, yaşadığımız məkan bu qədər gözəl və rəngarəng ola bilməz.

Daha sonra nazir bu gün Prezident İlham Əliyev tərəfindən təltif edilən bir qrup memarı təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, Azərbaycan memarlıq məktəbinin tarixi qədimlərə söykənir. "Ötən əsrin 30-cu illərindən fəaliyyət göstərən Memarlar İttifaqı Bakı şəhərinin idarəetmə orqanları ilə sıx əməkdaşlıq edib. Hazırda memarlarımız şəhərimizin gözəlləşməsində yaxından iştirak edirlər", - deyən E.Əzizov bildirib ki, bu gün memarlarımızın bir qrupunun təltif edilməsi Prezidentin bu sahəyə diqqətinin bariz nümunəsidir.

Tədbirdə çıxış edən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini, Əməkdar memar Elxan Əsədov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov və digərləri milli memarlığın inkişafına böyük töhfələr vermiş memarları yüksək dövlət mükafatlarına layiq görüldüklərinə görə təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Mərasimdə bir çox qurumun Azərbaycan Memarlar İttifaqına ünvanlandığı təbrik məktubu oxunub.

Tədbirdə Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonier Azərbaycan Memarlar İttifaqını 85 illiyi münasibətilə videoformatda təbrik edib.

Sonra bir qrup memara akademik Mikayıl Useynovun adına xatirə medalı təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Memarlar İttifaqının 85 illiyi ilə bağlı Azərbaycan və ingilis dilində kitab-albom hazırlanıb. Kitabda AZƏRTAC-ın fotolarından da istifadə olunub.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Evsiz şəhid ailəsi və qazi qalmayacaq

### Prezidentin bu barədə növbəti fərmanı həssas kateqoriyadan olan digər vətəndaşların da mənzil-məişət probleminin həllinə yönəlib

Azərbaycan dövləti bütün kateqoriyalardan olan vətəndaşlarına diqqət ayırır və qayğıkeşlik göstərir. Bu münasibət həssas kateqoriyadan olan insanlarımızın dolanışığı, mənzillə təminatı, sağlamlığı ilə bağlı həyata keçirilən tədbirlərdə daha aydın görünür. Həmin tədbirlər genişmiqyaslı, çoxşaxəlidir.



Ən vacib məqamlardan biri odur ki, deyilən istiqamətdə nə qədər çox iş görülsə belə onlar yenə də davamlı xarakter daşıyır. Prezident İlham Əliyevin cari il dekabrın 16-da imzaladığı "Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" fərmanı bunun daha bir təsdiqidir.

Azərbaycan dövləti uzun müddət düşmən əlilə yurd-yuvasından didərgin salınmış bir milyon soydaşımıza hər cür qayğıkeşlik göstərdi. Bunun sayəsində onlar öz ölkəmizdə yaşadılar, pərən-pərən olub dünyaya səpələnmədilər və indi artıq köçkün adı daşımırlar. Dövlətimizin qüdrətli başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi, xalqımızın gücü və ordumuzun rəşadəti ilə doğma torpaqlarımız yağı tapdağından azad edildi. İndi həmin ərazilərin sakinləri özlərinin yenidən tikilib-qurulan, cənnətə çevrilən şəhər və kəndlərinə dönəcəklər. Əvvəl paytaxtda və ölkənin digər bölgələrində məcburi köçkünlər üçün nəzərdə tutularaq tikilmiş və inşası davam edən mənzillər və fərdi evlər hesabına isə həssas kateqoriyadan olan digər vətəndaşlarımızın mənzilə olan ehtiyacı ödəniləcək. Prezidentimiz həmin məsələyə bir sıra çıxışlarında da toxunmuş və əmin olduğunu bildirmişdi ki, keçmiş məcburi köçkünlər bunu anlaşıqlıqla qarşılayacaqlar və həqiqətən də belədir.

Dövlət başçısının "Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" fərmanında da bildirilir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında bir sıra binalar inşa edilib, yaxud tikilməkdədir. Bunlardan digər həssas kateqoriyalardan olan vətəndaşların ehtiyacı üçün istifadə ediləcək. Sənəddə deyilir: "Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində, Qaradağ rayonunun Ümid qəsəbəsində, Binəqədi rayonunun Xocasən qəsəbəsində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda, həmçinin Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən, dövlət mənzil fonduna aid çoxmənzilli binalarda yerləşən mənzillərin (bu fərmanın 4-cü hissəsi nəzərə alınmaqla) Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 146.4-cü maddəsinə əsasən özəlləşdirilməsi həmin mənzillərin satışı yolu ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilsin".

Prezidentin yeni fərmanı bir daha göstərir ki, dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır. Bu, bir daha həm də onu təsdiqləyir ki, şəhid ailələrinin və müharibə əlillərinin, digər həssas kateqoriyalara aid vətəndaşların sosial-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu qayğıkeş münasibətin bir təzahürü də Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ölkəmizdə şəhid ailələri və müharibə əlillərinin, digər həssas qrupların mənzil və fərdi evlə təminatı proqramının ildən-ilə genişlənməsidir. Hər il yüzlərlə şəhid ailəsi və qazi yeni, müasir, rahat evə köçür. Sözügedən fərmanın imzalanması da bu məqsədi daşıyır.

Beləliklə, keçmiş məcburi köçkünlər üçün Bakı şəhərində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş binalarda imtiyazlı şəxslər mənzillə təmin edildikdən sonra istifadəsiz qalan mənzillərin satışından əldə olunan vəsait digər bölgələr üzrə həmin kateqoriyadan olan insanların mənzil və fərdi evlə təminatına yönəldiləcək. Fərmana əsasən tikilmiş həmin binalardakı, eləcə də paytaxtın Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən çoxmənzilli binalardakı istifadəsiz qalan mənzillərin satışı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçiriləcək.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildiriblər ki, mənzillərin satışı onların sayı müvafiq ərazi üzrə uçota alınmış şəxslərin (şəhid ailələri və müharibə əlillərinin, gözdən əlilliyi olan şəxslərin, uşaqlar üçün sosial xidmət və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının) sayından artıq olduqda həyata keçiriləcək. Nazirlik mənzillərin satışından əldə olunan vəsaiti digər rayonlar (şəhərlər) üzrə şəhid ailələri və müharibə əlillərinin, habelə Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzillə və ya fərdi evlə təminatına yönəldəcək.

Nazirlər Kabineti fərmanın 1-ci hissəsində nəzərdə tutulan mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə qaydasının layihəsini hazırlayıb, bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək və sənəddən irəli gələn digər məsələləri həll edəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ağdam Sənaye Parkında meşə zolağı salınır

Xəbər verildiyi kimi, Ağdam Sənaye Parkında sosial zonanın yaradılması işləri yekunlaşıb.

Hazırda Ağdam şəhərinin konsepsiyasına uyğun olaraq, Sənaye Parkının meşə zolağının salınması istiqamətində işlər davam etdirilir və suvarılmasında tamamilə "yaşıl enerji"dən istifadə edilir.

Belə ki, Ağdam Sənaye Parkının sosial zonasında quraşdırılmış Azərbaycan istehsalı olan günəş panelləri və batareyaları suyun damlama suvarma sistemi vasitəsilə paylanması üçün tələb olunan elektrik enerjisini təmin edir.



Qeyd edək ki, Ağdam Sənaye Parkında sosial zonanın işıqlandırılmasında da tam olaraq günəş enerjisindən qidalanan panellərdən istifadə edilir. Eyni zamanda gələcəkdə Sənaye Parkının elektrik təminatında da günəş enerjisindən istifadə edilməsi planlaşdırılır.

## Dövlət sektorunda ISO 37001 - beynəlxalq standartı üzrə sertifikat alan ilk qurum DSMF oldu

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fonduna ISO 37001 - "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartı üzrə sertifikat təqdim olunub.

Bu standartın tətbiqi fonda əhaliyə xidmətlərin keyfiyyətinin vətəndaş məmnunluğu prinsipi əsasında yüksəldilməsi, idarəetmə sistemlərinin şəffaflığının tam təmin edilməsi, bu sahədə davamlı nəzarətin gücləndirilməsi, korrupsiya risklərinin qarşısının alınması işlərində dəstək olacaq.

Həmçinin bu tətbiq fondun gündəlik funksiyalarının həyata keçirilməsində və vətəndaş müraciətlərinə baxılması zamanı şəffaflığı artıracaq, müvafiq sahədə qanunvericiliyin tələblərinin, qurumdaxili siyasət və proseslərin effektivliyini təmin edəcək.

Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov fondun fəaliyyətinin ISO 37001 beynəlxalq standartının tələblərinə uyğunlaşdırılması məqsədilə mərhələli şəkildə aparılan işləri qeyd edib.

O, standarta uyğun idarəetmə sisteminin qurulması, risk əsaslı yanaşmanın tətbiqi, daxili qayda və prosedurların yaradılması, kommunikasiya, işçilərə interaktiv təlimlərin verilməsi və s. işlərin yerinə yetirildiyini vurğulayıb.

Türkiyənin "Denetik Uluslararası Belgelendirme ve Gözetim Hizmetleri" şirkətinin Azərbaycandakı nümayəndəsi tərəfindən ISO 37001 - "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartı üzrə sertifikat təqdim edilib.

Fond "ISO 26000 - Sosial məsuliyyət" və "ISO 10002 - Müştəri məmnunluğu" beynəlxalq standartlarının tətbiqi istiqamətində də işlərə başlayıb.

## Özünüməşğulluq proqramı üzrə Bakıda daha 200 şəxs üçün kiçik bizneslər yaradılıb



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı çərçivəsində Bakıda daha 200 şəxsə aktivlər təqdim edildi.

Verilmiş avadanlıqlar hesabına onlar üçün istehsal-xidmət sahəsi üzrə kiçik bizneslər yaradılıb. Aktivlərlə təmin olunan şəxslərin mühüm hissəsini şəhid ailəsi üzvləri, müharibə iştirakçıları təşkil edir.

Paytaxtla yanaşı, bölgələrdə də özünüməşğulluq proqramı əsasında aktivlərlə təminat prosesi davam edir.

Proqrama cəlb olunan şəxslər üçün əvvəlcə təlimlər təşkil olunur, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir. Təlimləri uğurla başa vuran şəxslər seçdikləri özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

Ümumilikdə bu il 16 min şəxsin proqrama cəlb olunması nəzərdə tutulub.

## "İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişaf problemləri" müzakirə olunur

Sumqayıt Dövlət Universiteti (SDU) ilə Türkiyənin Yıldız Texniki Universitetinin (YTU) birgə təşkilatçılığı ilə "İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişaf problemləri" adlı beynəlxalq elmi konfrans keçirilir.

Onlayn formatda keçirilən konfransı giriş sözü ilə açan SDU-nun rektoru professor Elxan Hüseynov bildirib ki, iki qardaş ölkənin universitetləri arasında işbirliyi elmi yaradıcılığın inkişafına təkan verən amillərdəndir: "Sumqayıt Dövlət Universiteti elmi əlaqələrini günü-gündən genişləndirir, müəllim-tələbə mobilliyi istiqamətində mühüm uğurlu addımlar atır. Dövrün tələbi olan elm, təhsil sahəsinin inteqrasiyanın dərinləşdirilməsini, bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini nəzərə alaraq yüksək ixtisaslı kadr hazırlığı məqsədilə SDU dünyanın və Türkiyənin bir çox qabaqcıl ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir".

E.Hüseynov eyni zamanda 44 günlük Vətən müharibəsi dövründə qardaş ölkənin göstərdiyi siyasi və mənəvi dəstəyi yüksək dəyərləndirib, türk xalqına sonsuz təşəkkürünü bildirib. Qeyd edib ki, bu müharibədə Türkiyə mənəvi və diplomatik dəstək göstərərək yanımızda oldu: "Bütün dünya qardaşlığımızın sarsılmaz olduğunu bir daha gördü. Bu gün Türkiyənin Yıldız Texniki Universiteti ilə birgə keçirilən beynəlxalq elmi konfrans ölkələr arasında elm və təhsil sahələrinə öz töhfəsini verəcək".

YTU-nun rektoru Tamer Yılmaz 110 illik tarixi olan universitetdə həyata keçirilən kadr hazırlığı istiqamətləri barədə məlumat verib. O, hazırda universitetdə 37 min tələbənin təhsil aldığını , universitetdə 11 fakültə, hər fakültənin tərkibində də bir neçə ixtisas fəaliyyət göstərdiyini bildirib. YTU dünya üzrə 661 ali məktəblə əməkdaşlıq edir ki, onlardan da 6-sı Azərbaycan universitetidir.

Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə və AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru professor Nazim İmanov iştirakçılara beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib və konfransın əhəmiyyətindən bəhs ediblər. Bildirilib ki, aparılan iqtisadi siyasət sayəsində Azərbaycanın makroiqtisadi inkişafında dayanıqlıq təmin edilib və bir çox dövlətlərin uzun müddət ərzində əldə edə bilmədiyi yüksəliş tempinə nail olunub. Bu gün iqtisadiyyatda əldə edilmiş sıçrayışlı inkişafın və çoxsaylı nailiyyətlərin nəticəsi olaraq Azərbaycan keyfiyyətcə yeni pilləyə - modernləşmə mərhələsinə qədəm qoyub.

Konfransda Yıldız Texniki Universitetinin İqtisadi və idarəetmə elmləri fakültəsinin dekanı professor Halit Keskin, Bakı Dövlət Universitetinin Dünya iqtisadiyyatı kafedrasının müdiri professor Hacıağa Rüstəmbəyov, Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı dosent Əşrəf Ələkbərov və başqaları çıxış edərək belə konfransların keçirilməsinin faydalı olduğunu vurğulayıblar.

Konfransın sonrakı işi haqqında məsul katib, Biznesin təşkili və menecment kafedrasının müdiri dosent Qalib Hüseynov məlumat verib. Bildirilib ki, konfransın təşkilat komitəsinə 8 xarici ölkənin (Rusiya, Türkiyə, Qazaxıstan, Belarus, Çin Xalq Respublikası, İran İslam Respublikası, Özbəkistan) 19 universitetindən və respublikamızın 35 elm və ali təhsil müəssisəsindən 188 məruzə və tezis daxil olub.

Konfrans bu gün işini yekunlaşdırır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Gələn il 110 yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulub

AZƏRTAC xəbər verir ki, bu barədə "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev deyib.

Ölkəmizdə 50-yə yaxın istixananın olduğunu söyləyən R.Əliyev bildirib: "Ümumi istixanalar üzrə yığım səviyyəsi 70 faizdir. İlin sonunadək bu rəqəmi 80 faizə çatdırmaq istəyirik".

"Ağıllı sayğac"ların tətbiqindən danışan baş direktor qeyd edib ki, artıq bu prosesə yeni binalarda başlanılıb. Bu günə qədər 20-yə yaxın MKT-də bu sayğaclar tətbiq edilib.



## "Azeri Light"ın qiyməti 77 dolları ötüb

Azərbaycan neftinin qiyməti bahalaşıb.

AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,05 dollar artaraq 77,10 dollar olub.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti oktyabrın 25-də (88,19) qeydə alınmışdı.

## Regionların sənaye potensialından səmərəli istifadə qeyri-neft sektorunun inkişafını sürətləndirib

Prezident İlham Əliyevin apardığı uğurlu islahatlar sayəsində ölkədə yüzlərlə kiçik, orta və iri müəssisə, sənayeni inkişaf etdirmək məqsədilə nəhəng istehsal sahələri olan texnoparklar yaradılıb.

Texnoparklar həm ərazisinə, həm də burada yerləşən müəssisələrin sayına və istehsal etdiyi məhsulların növünə görə sənaye nəhəngləri sayılır. Digər sənaye birlikləri - sənaye məhəllələri isə texnoparklardan fərqli olaraq kiçik və yığcamdır. Buradakı müəssisələrdə əsasən yerli xammaldan istifadəyə üstünlük verilir. Lakin texnoparklardakı kimi, sənaye məhəllələrində də yüksək texnologiyalardan istifadə edilərək keyfiyyətli məhsul istehsal olunur. Sənaye məhəllələrinin bir üstün cəhəti də bölgələrdə yerləşməsidir. Bu, yerli sahibkarlara az məbləğdə investisiya qoymaqla dövlətin verdiyi güzəştlərdən istifadə etmək imkanı yaradır. Onlar da bu imkanlardan yararlanaraq öz işlərini müasir səviyyədə qura bilirlər.

Yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin davamlı inkişafını və əhalinin məşğulluğunu təmin etməkdə sənaye məhəllələrinin rolu böyükdür. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması baxımından da sənaye məhəllələrinin müstəsna əhəmiyyəti var.

Ölkəmizdə sənayenin inkişafına ən yüksək səviyyədə bu cür diqqət təsadüfi deyil. Əvvəla sənaye iqtisadiyyatın aparıcı sahələrindəndir. Qeyd etdiyimiz kimi, uğurla həyata keçirilən sənayeləşmə siyasəti sayəsində Azərbaycanın müxtəlif regionlarında yüzlərlə müasir sənaye müəssisəsi yaradılıb. Nəticədə daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, eləcə də ixracın həcmi və coğrafiyası genişlənib.

Ən əsası isə, əsas hədəf olan qeyri-neft sektorunun inkişafı sürətlənib və dönməz xarakter alıb. Sənaye məhəllələrinin istehsal sahələri həcmcə kiçik olsa da, istehsal etdikləri məhsul növlərinə görə çoxşaxəlidir. Belə məhəllələrin bir üstünlüyü də odur ki, ölkənin bütün şəhər və rayonlarında bu cür müəssisələr yaratmaq mümkündür və yaradılır da. Çünki bir çox müəssisələrin xammalı həmin bölgələrdə yerləşir. Kiçik sahələri əhatə etdiyi üçün onların quraşdırılmasının xərci də azdır. Belə müəssisələr onlara kiçik və orta sahibkarların sərmayə qoymaq imkanına malik olduqları üçün də sərfəlidir. Yeri gəlmişkən qeyd edək ki, bu istiqamətdə həyata keçirilən siyasətin əsas məqsədi hər bir rayonda sənaye məhəllələrinin yaradılmasıdır.

Neftçala Sənaye Məhəlləsi bu sahədə birincilərdəndir. İndi burada hətta minik avtomobilləri istehsal olunur. Artıq "Xəzər" avtomobilləri alıcıların rəğbətini qazanmağa başlayıb. Odur ki, gələcəkdə



müəssisədə ildə 10 min avtomobilin istehsalı nəzərdə tutulur.

Məhəllədə "Kəhf" MMC də fəaliyyət göstərir. Müəssisənin illik istehsal gücü 25 ton balıq yemi istehsal etməkdir. Qarşıdakı illər müəssisədə malqara üçün, eləcə də digər yemlərin istehsalı planlaşdırılır. Onu da bildirək ki, müəssisənin yaradılması üçün 12 milyon manat investisiya qoyulub. Bunun 5,9 milyon manatı Sahibkarlığın İnkişafı Fondundan alınmış güzəştli kreditdir.

Neftçala Sənaye Məhəlləsində daha bir müəssisə fəaliyyət göstərir. İllik istehsal gücü 2 milyon tara olan "Metak" MMC-yə 1,35 milyon manat investisiya yatırılıb.

Həmin müəssisəyə də Sahibkarlığın İnkişafı Fondu tərəfindən 600 min manat güzəştli kredit verilib. "Gilan PİVOT" MMC-nin investisiya dəyəri isə 1 milyon manatdır. Müəssisədə 15 nəfər işlə təmin edilib. Bundan başqa, Neftçala Sənaye Məhəlləsində "Toğrul-2008", "Providence Limited", "Azproduct", "Petroqeoaz" MMC-lər fəaliyyət göstərir.

Hacıqabul və Sabirabad sənaye məhəllələri də ölkədə məhsul istehsalına öz töhfələrini verir. Masallı Sənaye Məhəlləsi isə Prezident İlham Əliyevin 2016-cı il iyunun 13-də imzaladığı sərəncamla yaradılıb. Ümumi sahəsi 10 hektar olan sənaye məhəlləsində dövlət vəsaiti hesabına lazımi infrastruktur, o cümlədən 2,5 MVt gücündə elektrik enerjisi təchizatı, gücü saatda 25 kubmetr olan sutəmizləyici qurğu qurulub, su və kanalizasiya sistemi, təbii qaz təchizatı, rabitə və nəqliyyat infrastrukturu yaradılıb. Eləcə də yüksək standartlara cavab verən 3 istehsal modulu, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib, genişmiqyaslı abadlıq işləri aparılıb. Hazırda burada mebel, dam örtükləri və aksesuarları, dəmir məmulatları, döşək, taxta emalı məmulatları istehsal olunur.

Göründüyü kimi, Prezident İlham Əliyevin sənayeləşmə siyasəti öz müsbət bəhrəsini verir. İndiyədək sənaye parkları və sənaye məhəllələrində ümumilikdə 5 milyard manatlıq məhsul istehsal edilib, 2 minə yaxın yeni iş yeri yaradılıb. Sənaye parkları və sənaye məhəllələrində məhsul istehsalı ildən-ilə artmaqda davam edir. Təkcə cari ilin 9 ayında bu sahədə 1,5 milyard manatlıq məhsul istehsal olunub. Son məlumata görə, bu sahənin sənayenin qeyri-neft sektorunda xüsusi çəkisi 14,2, qeyri-neft sənaye məhsullarının ixracında payı isə 25,9 faizdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan mediası üçün yeni başlanğıc

**İctimai kommunikasiyalar bütün dövrlərdə insanların həyatında mühüm yer tutub. Müasir informasiya cəmiyyəti şəraitində isə bu sahənin əsas istiqamətlərindən olan media fəaliyyəti indi tarixdə ən böyük inkişaf mərhələsinə qədəm qoyub.**



Aramsız informasiya axını ilə işləyib, bu axını yönləndirən medianın öz spesifik xüsusiyyətləri var. Düzgün tənzimləndikdə media fəaliyyəti cəmiyyətin dürüst, obyektiv məlumatlandırılmasına, maarifləndirilməsinə, aydın ictimai rəyin formalaşdırılmasına xidmət edir. Sağlam informasiya vasitələri, ilk növbədə, dövlətçiliyə, xalqın maraqlarına və ideallarına xidmət etməlidir. Belə mövqe KİV-i xalqın etibarlı müttəfiqinə, onun maraqlarının müdafiəçisinə, milli dövlətçiliyi möhkəmlədən sosial quruma çevirir. Cəmiyyətdə qəbul olunmayan mətbuat orqanı isə təbii ki, öz sosial niyyətini yerinə yetirə bilmir. Onun nüfuzu aşağı olur və sözü eşidilmir. Media subyektləri cəmiyyətin qayğıları ilə yaşamalıdır. Lakin bunun üçün hazırlıqlı, öz ixtisasını kifayət dərəcədə bilən, işinin peşəkarı sayılan qələm sahiblərinin olması zəruridir.

Yaşadığımız dövrün mürəkkəbliyi, taleyüklü məsələləri, Azərbaycan mediasının milli ruh və demokratik amallar üzərində köklənmiş ənənələri də bütün dövrlərdə peşəkarlardan xalqının, dövlətinin həqiqətlərinə xidmət etməyi, keçdiyi yolu, qarşılaşdığı çətinlikləri, onun uğur və problemlərini düzgün və obyektiv işıqlandırmağı, cəmiyyətimizin tərəqqisinə xidmət göstərməyi tələb edir. Bu nöqteyi-nəzərdən milli mediamızın da kamil yaradıcılıq ənənələri vardır. Ustadlarımız üçün həyat həqiqətlərini düzgün ifadə etmək, baş verən hadisələrin mahiyyətini obyektiv göstərmək müqəddəs bir prinsip olmuşdur. Əsl qələm əhlinin yazısı zamanın danışan dili olmalı, dövrün həqiqətini deməlidir. Bu baxımdan mətbuat qədər qüdrətli və cəmiyyətdə mütərəqqi, müasir ovqatlar, ideyalar formalaşdıran ikinci bir vasitə yoxdur.

Medianın öz inkişaf yolundan kənara çıxması, idarə olunmayan informasiya xaosunun ziyanları barədə heç danışmağa dəyməz. Ona görə də dünyanın bütün sivil ölkələrində media sahəsində ictimai münasibətlərin tənzimlənməsinə xüsusi diqqət yetirilir. Bu sahədə qanunvericilik normaları zaman-zaman təkmilləşdirilir, müasir dünyamızın çağırışlarına uyğunlaşdırılır.

Media hər zaman inkişaf yolunda cəmiyyətdən bir addım öndə addımlayan, mütərəqqi yenilikləri ictimai həyatımıza gətirən, onların normaya çevrilməsinə xidmət göstərən təsisatdır. Ona görə bu sahənin özü də çox sürətlə dəyişir. Yeni inkişaf mərhələlərinə transformasiya olunur. Müasir meyillərdən təsirlənir. Bütün bunlar isə media sahəsində qanunvericilik normalarının da zamanla təkmilləşdirilməsini, dövrün tələblərinə uyğunlaşdırılmasını labüd edir. 1875-ci ilin 22 iyulundan təməli qoyulmuş milli mətbuat tariximizin ilki olan "Əkinçi"dən üzübəri biz bu mərhələləri bir neçə dəfə yaşamışıq. Dövr dəyişdikcə bu proses də davam edəcək.

Çünki inkişaf, zamanla həmahəng yenilənmə heç zaman tamamlanmayan prosesdir. Təkcə bir faktı diqqətə çatdıraq ki, 1999-cu ildə qəbul olunmuş, hazırda da qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanuna bu günə kimi 79 dəfə dəyişiklik edilib. Amma bu qədər dəyişiklikdən sonra da qanun yenə müasir tələblərlə uzlaşmır. Fikrimizcə, bunun özü də media sahəsində dəyişikliklərin nə qədər sürətlə baş verməsinin bariz göstəricisidir.

## Mediada islahatlar və onun inkişafı dövlət üçün prioritetdir

Azərbaycan mediası bu gün yeni bir inkişaf dönəmindədir. Bu fəaliyyət sahəsində möcüzələr yaradan texniki tərəqqidən mediada təqdim olunan məzmuna, mövzuların işlənmə və çatdırılma formalarına qədər hər bir məqamda belə bir inkişafın izlərini görürük. Ənənəvi media fəaliyyətinin sərhədlərini aşan yeniliklər həm bu sahənin inkişafına, həm də ümumən cəmiyyət həyatına böyük faydalar gətirir. Bununla belə, gözlənilməz sürətli inkişafın, media fəaliyyətinin peşəkar dairədən çıxaraq kütləviləşməsinin yaratdığı müəyyən çətinliklər də olur. Ona görə bu istiqamətdə müəyyən islahatların aparılmasına, inkişaf proseslərinin düzgün məcrada tənzimlənməsinə böyük ehtiyac vardır. Cəmiyyət həyatı üçün mühüm əhəmiyyət kəsb edən bütün məsələlər kimi, bu da Azərbaycan dövlətinin diqqətindədir. Media fəaliyyəti sahəsində ictimai münasibətlərin müasir çağırışlara uyğun düzgün qurulmasından ötrü dövlət üzərinə düşən vəzifələri yerinə yetirir.

Tarixi qələbəmizlə tamamlanmış Vətən müharibəsinin başa çatmasından qısa müddət sonra Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman imzalaması, həmin fərman əsasında Medianın İnkişafı Agentliyinin yaradılması və "Media haqqında" qanun layihəsinin hazırlanması barədə tapşırığın verilməsi milli informasiya məkanında davamlı inkişafın Azərbaycan dövləti üçün mühüm prioritet təşkil etdiyini və inkişafa doğru atılan addımların ardıcıllığını göstərir.

"Media haqqında" qanun layihəsi ictimai müzakirəyə də çıxarılıb. Peşəkar çevrələrdə layihənin təfərrüatlarının geniş şərhi verilib, ayrı-ayrı müddəalarına rəy bildirilib. Milli Məclisdəki müzakirələrlə paralel belə bir ictimai müzakirə də təbii ki, faydalıdır və media sahəsində maksimum təkmil bir qanunun formalaşmasına xidmət edir. Media islahatları ilə bağlı Azərbaycan dövlətinin siyasi iradəsinin təcəssümü olan bu layihənin mahiyyəti və kifayət qədər həssas bir sahəyə aidliyi nəzərə alınaraq onun hazırlanması zamanı çoxsaylı media nümayəndələri və ekspertləri ilə fikir mübadiləsi aparılıb. Bu müzakirələrdə 800-ə yaxın media subyekti, jurnalist və ekspert iştirak edib. İrəli sürülən faydalı təkliflər layihənin məzmununda nəzərə alınıb. Şübhəsiz ki, geniş ictimai müzakirələrdə formalaşan maraqlı təkliflər də növbəti mərhələlərdə dəyərləndiriləcək.

## Hər yazar jurnalistdirmi?

Sivil münasibətlər sisteminin mövcud olduğu bütün cəmiyyətlərdə media anlayışı sosial məsuliyyət anlayışı ilə yanaşı dayanır. Azərbaycanda da məsuliyyətli medianın mövcud olması bütün sağlam düşüncəli insanların arzusudur. Çünki media öz ictimai missiyasını yalnız sosial məsuliyyət prinsiplərinə əməl etdikdə yerinə yetirə bilir və cəmiyyətə faydalı olur. Məsuliyyətli media isə yalnız qanunların yaxşı işlədiyi şəraitdə inkişaf edir. Bu, dünya təcrübəsinin əsrlər ərzində ortaya qoyduğu reallıqdır. Azərbaycanda da "Media haqqında" yeni qanun layihəsinin başlıca məramı odur. Layihə ilə tanışlıq göstərir ki, qanun statusu aldıqdan sonra ona düzgün əməl edilərsə, bu sənəd ölkəmizdə məsuliyyətli medianın inkişafına təkan verəcək və mütərəqqi nəticələrə gətirəcək. Bu mənada "Media haqqında" qanun layihəsini milli mediamızın inkişafı üçün yeni imkanlar və böyük bir başlanğıc saymaq olar.

Qanun layihəsinin müsbət cəhətlərindən biri media subyektlərinin təsnifatı ilə bağlıdır. Əsrlərin təcrübəsi nəticəsində formalaşmış media fəaliyyətində media subyektlərinin ənənəvi bölgüsü də müəyyənləşmiş və bu təsnifat uzun illər ərzində mövcud olmuşdur. Amma son onilliklərdə baş verən dəyişikliklər, birmənalı olmayan yanaşmalar təsnifat məsələləri ilə bağlı təsəvvürlərin yayğınlaşmasına gətirib çıxarırdı. Bu isə təbii ki, jurnalistin ictimai obrazına da kölgə salır və peşəkarlığa xələl gətirirdi. Yeni qanun layihəsində isə media subyektlərinin dəqiq təsnifatı verilir. Beləliklə, layihə dolayısı ilə jurnalistin sosial portretinin müəyyənləşməsinə kömək göstərir. Qəbul olunacaq yeni qanun sosial şəbəkələrin və "bloger"lərin fəaliyyətini tənzimləməyəcək. Beləliklə, sosial şəbəkələrdə müəyyən izləyici kütləsi toplamış səhifələrin kütləvi informasiya vasitəsi, blogerlərin isə jurnalist sayılması kimi yanlış təsəvvürlər aradan qalxacaq.

"Vətəndaş jurnalistikası" adlandırılan və peşə olaraq deyil, hobbi olaraq həyata keçirilən fəaliyyət də bu qanunun təsir dairəsindən kənarda qalacaq. Həqiqətən, biz gündəlik həyatımızda müəyyən hüquqi bilgilərə malik olan və yeri gələndə başqalarına müəyyən hüquqi məsləhətlərini əsirgəməyən nə qədər şəxs görürük. Yaxud təlimlər keçən, mühazirələr oxuyan nə qədər insanlarla rastlaşırıq. Onların hamısını vəkil, yaxud müəllim hesab edə bilmərik. Ona görə ki, vəkillik də, müəllimlik də peşəkar fəaliyyət növüdür. Bu fəaliyyətlə məşğul olmağın müəyyən şərtləri, standartları, tələbləri var. Eyni hal vətəndaş jurnalistikası ilə məşğul olanlara da aiddir. Sosial şəbəkələrdə öz rəyini, fərdi təəssüratlarını paylaşmağa kimsəyə qadağa qoyulmur. Amma bu, heç bir halda peşəkar jurnalistika deyil. Bu cür paylaşımların "vətəndaş jurnalistikası" adı altında ənənəvi jurnalistika ilə bərabər tutulması yanlış yanaşmadır.

Orasını da qeyd edək ki, qanun layihəsində təsbit olunmuş "jurnalist anlayışı" xidmət müqaviləsi əsasında işləyən jurnalistləri də əhatə edir. Qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək, ictimaiyyətdə jurnalistikaya və jurnalistlərə qarşı formalaşmış neqativ düşüncənin ortadan götürülməsinə şərait yaradacaq, jurnalistin nüfuzu yüksələcək, ictimaiyyət və media arasında qarşılıqlı etimadın güclənməsi təmin olunacaq.

"Media haqqında" qanun layihəsi ən mühümü dövlət-media münasibətlərində əsas elementlərdən biri kimi hüquqi mənzərənin dəqiqləşməsinə də müsbət təsirini göstərəcəkdir.

## Media reyestrinin faydaları

Qanun layihəsinin öz məqsədinə çatması, ümumən cəmiyyətimizə faydalı olması üçün onun müddəalarının düzgün anlaşılması, əsas qayəsinin dəqiq qavranılması çox mühümdür. Ona görə də layihənin xüsusilə geniş polemika doğurmuş məqamlarına aydınlıq gətirilməsi faydalı olardı. Bunlardan biri media reyestrinin yaradılması ilə bağlıdır. Bəziləri bu müddəanı jurnalistika fəaliyyəti ilə məşğul olmaq istəyənlərə qarşı guya qadağa mexanizmi kimi yozmağa çalışsalar da, bunun da heç bir əsası yoxdur. Fikrimizcə, bu, həmin müddəanın hüquqi məntiqinin düzgün anlaşılmamasından irəli gəlir. Məsələ burasındadır ki, jurnalistlərin media reyestrinə daxil edilməsi könüllüdür. Medianın İnkişafı Agentliyinin verdiyi jurnalist vəsiqəsi olmasa da, şəxs jurnalist kimi yenə fəaliyyət göstərə biləcək. Media subyektləri onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqil olacaqlar. Media reyestrinin məqsədi isə media subyektlərinin sayının müəyyənləşdirilməsi, bununla da media subyektlərinə və onların işçilərinə tanınan hüquqların müdafiəsi mexanizminin formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsinin təmin edilməsi, bu sahədə fəaliyyətin stimullaşdırılmasıdır. Xatırladaq ki, çap mediasının fəaliyyətə başlamazdan əvvəl qeydiyyatdan keçməsi, bu zaman lazımi məlumatları təqdim etməsi Azərbaycanda uzun illərdir ki, tətbiq edilən hüquqi prosedurdur. İndi isə bu yanaşma onlayn media subyektlərinə də tətbiq olunacaq. Eyni zamanda media subyektlərinə dair qeydiyyat məlumatları daha təkmil qaydada sistemləşdiriləcək, bu məlumatların toplandığı ümumi baza media reyestri adlandırılacaq.

Reyestrə daxil edilmək üçün tələb olunan məlumat və sənədlər mahiyyət etibarilə mətbu nəşrlərin uçotu zamanı tələb olunanlardır, sadəcə müasir dövrün çağırışlarına uyğunlaşdırılmışdır. Bu məlumatlar və sənədlər media subyektlərində mövcuddur, reyestr sadəcə onları vahid bazada toplayacaq, pərakəndəliyin qarşısını alacaq. Məlum olduğu kimi, Azərbaycan hökuməti medianın inkişafına mütəmadi qaydada dəstək tədbirləri həyata keçirir. Məlumatların tamlığı, sistemli, nizamlı şəkildə olması ondan ötrü lazımdır ki, bu kömək öz ünvanına çatsın. Əsl media subyektləri ondan faydalana bilsinlər. Etiraf edək ki, dağınıq və səpələnmiş məlumatlar medianın inkişafına dəstək layihələrinin həyata keçirilməsinə və bu istiqamətdə səmərəli fəaliyyətin təşkil edilməsinə kifayət qədər mane olurdu. İndi isə bu sahədə stimullaşdırıcı addımların daha effektiv şəkildə həyata keçirilməsinə şərait yaranacaq. Bunun da yolu çox sadə olacaq. Belə ki, kütləvi informasiyanın əldə olunması, ötürülməsi, istehsalı və yayımı fəaliyyətini təsadüfi və qeyri-müntəzəm şəkildə həyata keçirən, əsas istiqaməti media sahəsində fəaliyyətin həyata keçirilməsi olmayan subyektlər media subyekti hesab edilməyəcəkdir. Beləliklə, güzəşt və imtiyazların tətbiq oluna biləcəyi media subyektlərinin və jurnalistlərin dairəsi müəyyənləşəcək, bu istiqamətdəki fəaliyyətin həcmi və əhatə dairəsi planlaşdırılacaqdır.

Media reyestri isə həm media subyektlərinin, həm də jurnalistlərin fəaliyyətinin daha səmərəli təşkilinə, onların hüquqlarının ən yüksək səviyyədə qorunmasına, eyni zamanda heç bir qanuni əsası olmadan özünü media subyekti və ya jurnalist kimi təqdim edən, bu statusdan xoşagəlməz məqsədlərlə sui-istifadə edib əsl jurnalistin şərəfli adını nüfuzdan salan ünsürlərin fəaliyyətinin qarşısını alacaq. Adları media reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin təqdim olunması da könüllülük prinsipi əsasında həyata keçiriləcək. Eyni zamanda bunun media mühitinin sağlamlaşmasına çox müsbət təsirləri olacaq.

## "Copy-paste" jurnalistikasından qurtuluş

Qanun layihəsində son illər jurnalistikamızın yaralı yerinə çevrilmiş müəllif hüquqları ilə bağlı da səmərəli həll yolları var. Azərbaycan jurnalistikası hazırda "copy-paste" janrından çox ciddi əziyyət çəkməkdədir. Bir media subyektinin hazırladığı, tirajladığı material cəmi bir neçə dəqiqə sonra heç bir istinadsız onlarca portalda yayılır. Jurnalistlər, ayrı-ayrı media subyektləri arasında bununla bağlı tez-tez mübahisələr düşür, qarşıdurma yaranır. Ona görə də qanun layihəsində informasiyaya dair tələblərin müəyyənləşdirilməsi, eyni zamanda müəllif hüquqlarının qorunmasına hüquqi təminatın verilməsi ilə bağlı müddəalar öz əksini tapıb. Bütün bunlar media subyektləri arasında sağlam rəqabət mühiti formalaşdıracaq. Media subyektləri istehsal etdikləri məhsullar üzərində müəlliflik hüquqlarını qoruya biləcəklər. Onların bir-birindən xəbər "oğurlamaq" kimi ziyanlı vərdişi ortadan qalxacaq. Ciddi xəbər uğrunda sağlam rəqabət yaranacaq, informasiya ilə işləmək bacarıqlarını inkişaf etdirəcək.

Yeni qanun layihəsinin media orqanlarının fəaliyyətinə icazə ilə bağlı müddəaları da kifayət qədər demokratikdir. İnternet televiziyalarının lisenziya almaq üçün müraciət etməsi məcburi xarakter daşımır. Lisenziya almayan internet televiziyaları da öz fəaliyyətlərini maneəsiz davam etdirə biləcəklər. Eyni zamanda çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur.

Ümumən, "Media haqqında" qanun layihəsində nəzərdə tutulan müddəalar Azərbaycanın informasiya mühitinin milliləşdirilməsinə və sağlamlaşdırılmasına, daxili informasiya məkanının təhlükəsizliyinin təmin edilməsinə, cəmiyyətdə jurnalistin nüfuzunun yüksəlməsinə, mətbu sözün məsuliyyətinin artmasına və mediaya ictimai inamın yüksəlməsinə xidmət edəcəkdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Nizami Gəncəvi mədəni irsi: XXI əsr" simpoziumuna yekun vurulub

Heydər Əliyev Fondunun, Mədəniyyət və Təhsil nazirliklərinin dəstəyi ilə paytaxtın Xəzər rayonunun Zirə qəsəbəsindəki Mədəniyyət Mərkəzi - Eko Parkda "Nizami Gəncəvi İrsi XXI əsr" simpoziumunun son hissəsi, Nizami yaradıcılığına həsr olunan sərginin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Zirə Mədəniyyət Mərkəzi - Eko Parkın qalereya hissəsində Nizami Gəncəvinin "Xəmsə"si motivləri əsasında hazırlanmış əl işlərindən ibarət sərgiyə baxıblar.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi tədbiri açıq elan edərək qonaqları salamlayıb. Bildirib ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın böyük mütəfəkkirlərinin irsinə diqqət həm də mədəni irsimizin yaşadılmasına xidmət edir. Ölkəmizdə "Nəsimi ili"nin, daha sonra "Nizami Gəncəvi ili"nin elan edilməsi bu dahilərin yaradıcılığının və Azərbaycan mədəniyyətinin nəinki ölkəmizdə, eləcə də beynəlxalq aləmdə təbliğinə böyük töhfə oldu.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında bildirib ki, milli-mənəvi dəyərlərimizin qədim kökü var. Onlardan biri də Nizami Gəncəvidir: "Nizaminin əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunub. Ona görə ki, əsərlərində ən yüksək dəyərlərə inam var. Vətənə məhəbbət, ailə institutu, xeyir əməllər - bütün bunların hamısı Nizami yaradıcılığında öz əksini tapıb. Bugünkü tədbir Nizaminin zəngin irsini gələcək nəsillərə ötürmək baxımından əhəmiyyətlidir. 2021-ci ili "Nizami Gəncəvi ili" elan etdiyinə görə Prezidentə minnətdarıq. Əlamətdar il çərçivəsində müxtəlif ölkələrdə keçirilən müxtəlif tədbirlərlə bir daha Azərbaycan mədəniyyətini və mədəni dəyərlərimizi dünyaya təbliğ etmiş olduq".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Nizami Gəncəvini Azərbaycan fəlsəfi fikrinin böyük elçisi kimi səciyyələndirib: "Biz Nizami ideyalarını uşaq və gənclərimizə ötürməliyik. Nizami böyük dəyərdir və onun ideyaları hər zaman aktualdır. Bu gün dünyada onun əsərlərindəki qadın azadlığı, xeyirxahlıq kimi dəyərlərə ehtiyac var".

Yazıçılar Birliyi Xəzər bölməsinin rəhbəri, şair Arif Buzovnalı Nizaminin Azərbaycan ədəbiyyatındakı rolundan söz açıb. Qeyd edib ki, əbədiyaşar ideyalar müəllifi olan Nizaminin hər bir əsəri yenidən araşdırılmalıdır.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev növbəti Nizami bayramına toplaşanları salamladı. Bildirib ki, dünya neçə əsrdir Nizamini oxuyur, dərk edir, öyrənir.

Nizami Gəncəvinin əcnəbi tədqiqatçıları şairin irsi ilə tanış olduqca Azərbaycan mütəfəkkirinin dahiliyini, insan ruhuna necə böyük təsir etdiyini vurğulayırlar. Nizami ideyaları ona görə dünya tərəfindən qəbul olunur ki, o, ideal cəmiyyət, humanizm, sülh, bərabərlik kimi bəşəriyyəti bu gün də məşğul edən aktual məsələlərdən yazırdı: "Əcnəbi elm adamları Nizamini araşdırdıqca Azərbaycan mədəniyyətinə də baxışları dəyişir. Çünki Nizami Azərbaycan mədəniyyətinin ən layiqli təmsilçisidir. Azərbaycandakı dünyaya örnək multikultural, tolerant mühitin bir qaynağı da Nizami kimi mütəfəkkirlərimizin ideallarından gəlir. Nizami nə qədər bəşəri olsa da, öz kökü ilə fəxr edirdi".

Milli Məclisin deputatı Soltan Məmmədov tədbirin təşkilatçılarına minnətdarlığını bildirib, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyəti və ədəbiyyatının qorunması və təbliği istiqamətində gördüyü işlərdən söz açıb.

AMEA-nın Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru, Milli Məclisin deputatı, akademik Rafael Hüseynov Nizami Gəncəvini Azərbaycanın rəmzi adlandırıb. Qeyd edib ki, Nizami ideoloji qüvvədir. Nizami Azərbaycanı güclü göstərən amildir: "2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi ölkəmizin siyasi hədəfidir. 8 əsr boyunca Nizamiyə yüzlərlə cavab yazılıb, o həm Şərqə, həm də Qərbə işıq ötürən mayak olub. Onun irsinin təbliği davamlı olmalı, bu ənənə davam etdirilməlidir. Bu gün biz Nizamini müasirimiz kimi anırıq.

*Yüz il sonra sorsan bəs o hardadır?*
*Hər beyt səslənər burda, burdadır.*

Bu fikir bu gün də öz gücünü saxlayır. Əgər Nizaminin sözü dünyanın dörd bir yanında bu gün yaşayırsa, demək, o, daim yaşayır".

Çıxışlardan sonra qonaqlar mərkəzin Xalça muzeyi ilə tanış oldular. Burada Nizaminin qəzəlləri üstdə xanəndə, Əməkdar artist Babək Niftəliyevin ifasında səslənən muğamlar tədbirə rəng qatıb.

Daha sonra simpozium çərçivəsində elan olunan üç istiqamət üzrə əl işləri müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Rəngkarlıq üzrə birinci yerə Əminə Rəcəbəliyeva, ikinci yerə Reyhan Aslanova, üçüncü yerə Fəxri Abbasov layiq görülüblər. Onlara diplom və hədiyyələr təqdim olunub.

Dekorativ-tətbiqi sənət üzrə İsgəndər Məmmədov I, Səbinə İsmayılova II, Aytac Atakişiyeva isə III elan olunub. Heykəltaraşlıq üzrə qrup işinə görə mükafat isə 6 iştirakçı arasında bölünüb.

Mükafatlandırmadan sonra konsert proqramı təqdim olunub. Qara Qarayevin "Yeddi gözəl" baletindən fraqment, Üzeyir bəy Hacıbəylinin "Sevgili canan" romansı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistlərinin ifasında Fikrət Əmirovun "Nizami" baletindən fraqment, teatrın solisti, Əməkdar artist Fərid Əliyevin ifasında "Sənsiz" romansı səsləndirilib. Azərbaycan Dövlət Rəqs Ansamblı isə "Cəngavərlərin döyüş rəqsi"ni təqdim edib.

Bədii hissə Xalq artisti Alim Qasımovun, Əməkdar artist Fərqanə Qasımovanın ifaları və qiraətçi Nadir Hüseynovun çıxışı ilə sona çatıb.

# Qətiyyətli siyasət, dəyişməz mövqe

*Əvvəli 1-ci səh.*

Şarl Mişelin iştirakı ilə keçirilən üçtərəfli görüşdə bütün məsələlər müzakirə olundu. Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəldilər. Eyni zamanda kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə edildi. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq etdi. Bildirilib ki, Ermənistan tərəfi dəmir yolunun çəkilişinə tezliklə start verəcək. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəlindi.

Avtomobil yolunun marşrutunun müəyyən edilməsi ilə bağlı müzakirələr isə davam etdiriləcək.

Əminliklə deyə bilərik ki, nəticə etibarilə bu görüşdə müzakirə olunan məsələlər rəsmi Bakının mövqeləri ilə tam üst-üstə düşür. Yəni bu dəfə də Azərbaycan istədiyinə nail oldu.

Şarl Mişel bəyanatında Ermənistan və Azərbaycan arasında münaqişənin aradan qaldırılmasına çağırış etdi və bu çağırışın arxasında da Ermənistana ünvanlanan mesajlar durur. Əvvəla bununla Aİ Prezidenti Ermənistana çatdırdı ki, Qarabağ münaqişəsi artıq keçmişdə qalıb və bununla barışmaqdan başqa yol yoxdur. Digər tərəfdən ermənilərə xatırladılır ki, Azərbaycan qalib ölkədir və bütün dünya belə bölgənin taleyi ilə bağlı qərarlar qəbul edərkən bundan sonra 44 günlük savaşın nəticələrini, Azərbaycanın qələbəsini nəzərə almaq məcburiyyətindədir. Deməli, beynəlxalq təşkilatlar da razılaşırlar ki, qalib Azərbaycan söz sahibidir və məğlub ölkə onun dedikləri ilə hesablaşmalıdır.

Keçirilən görüşdə regiondakı durum müzakirə mövzusu oldu və hər iki təşkilat tərəfindən tərəflərə çağırışlar edildi. Azərbaycan Prezidenti isə hər şeyin göz önündə olduğunu deyərək, Ermənistanın sülh danışıqlarından yayındığını bəyan etdi: "Bizim siyasətimiz çox açıq və aydındır. Ümidvaram ki, əgər Ermənistan tərəfindən xoş məram olsa, biz təklif etdiyimiz kimi, iki ölkə arasında sülh razılaşması üzərində işləyə və düşmənçiliyə son qoya bilərik".

## Bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir

Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələdə İlham Əliyev bir daha mövqeyini ifadə edərək dedi ki, regionda kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyannamədə öz əksini tapıb. Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir.

Zəngəzur dəhlizinin hüquqi rejiminə gəlincə, Prezident dedi ki, o da Laçın dəhlizinin eynisi olmalıdır. Çünki üçtərəfli Bəyanatda açıq-aydın göstərilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir: "Bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması".

Dekabrın 15-də Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirak edən Prezident İlham Əliyev uğurla inkişaf edən Azərbaycan-Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək Aİ ilə ölkəmiz arasında 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulayıb.

Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun artıq başa çatdırıldığını bildirən Prezident sənədin qalan hissəsinin qarşıdan gələn dövr ərzində aparılacaq danışıqlar nəticəsində yekunlaşdırılacağına ümidvar olduğunu ifadə edib. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqının 9 üzv dövləti, yəni quruma üzv olan ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzaladığını vurğulayıb. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədlərinin əlaqələrimizin xarakterini nümayiş etdirdiyini deyib.

Azərbaycan Prezidenti üçtərəfli görüşü də dəyərləndirərək Şarl Mişelin təşəbbüsü ilə aparılan bu danışıqların çox praktiki olduğunu və təfsilatlı xarakter daşıdığını, burada Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlərin müzakirə olunduğunu, nəticə etibarilə səmərəli və praqmatik keçdiyini diqqətə çatdırıb.

Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibə verən İlham Əliyev bir daha vurğulayıb ki, Ermənistana dəfələrlə mesaj ünvanlasa da, rəsmi İrəvan köhnə ampluasından əl çəkmir. Bu onların sülh istəmədiyini göstərir, çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir.

Prezident ümid etdiyini bildirib ki, yaqin Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Əks təqdirdə Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər.

## Ermənistanın inkişafı üçün yeganə yol...

Prezident İlham Əliyevin mövqeyi tamamilə açıq və aydındır. Azərbaycan sülh istəyir, müharibə yox. Azərbaycan İkinci Qarabağ müharibəsinin qalib dövlətidir və bu reallıq nəzərə alınmalıdır.

Prezidentin də söylədiyi kimi, Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur. Azərbaycan onu güc yolu və siyasi vasitələrlə həll edib. BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul olunandan 27 il sonra bunu birtərəfli qaydada həyata keçirib və bu, ilk növbədə, Ermənistan tərəfindən nəzərə alınmalı olan yeni reallıqdır.

İlham Əliyev müsahibəsində qeyd edib ki, postmüharibə vəziyyətinin gedişatından göründüyü kimi əsas beynəlxalq oyunçular artıq yeni reallığı qəbul edib və gələcəyi bu yeni reallığa əsaslanaraq qurmağa çalışırlar. Ermənistan Azərbaycana qarşı istənilən düşmənçilik əməllərindən çəkinməli, Azərbaycana qarşı ərazi iddialarına son qoymalıdır.

Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycanla və Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq, düşmən qonşu deyil, normal qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasıdır. Əgər bu formul Ermənistan hökuməti və siyasi elita tərəfindən qəbul edilsə, irəliləyiş üçün şans var.

Avropa İttifaqı, eləcə də NATO qismində regionda gedən sülh yaradıcılıq proseslərinə müəyyən mənada diqqət yetirilir və həm NATO-nun baş katibinin, həm də Avropa İttifaqı Şurası sədrinin mövqeyi bundan ibarətdir ki, regionda dayanıqlı sülh yaransın və postmünaqişə dövrünün bütün problemləri aradan qaldırılsın. Bu da o deməkdir ki, beynəlxalq təşkilatlar Azərbaycanın sözünü deyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***




# Karikatura necə yaranıb?

**Sərbəst ifadə azadlığının olmadığı, senzuraların tətbiq edildiyi dövrlərin başlanğıcında incəsənət nümayəndələri cəmiyyətə çatdırmaq istədikləri mesajları sətiraltı fikirlərlə yazılarda, rəsmlərdə, məqalələrdə göstərirdilər. Bu fikirlərin ifadə olunmasında karikaturalar da əsas tətbiq olunan vasitələrdən idi.**



Karikatura ilk dəfə XVI-XVII əsrlərdə təsviri sənət janrına çevrilmiş və satirik rəssamlar tərəfindən ictimai xadimləri və siyasətçiləri və digərlərini tənqid etmək üçün yaradılmışdı. Bu sənətin yeni işartılarının göründüyü zaman karikaturaçılar öz qələmləri ilə hətta yazıçıların belə bacara bilmədiyi mövzuları işıqlandırmaq gücünə sahib oldular. Janr əhalinin əksəriyyətinin oxuya bilmədiyi vaxtda mühüm əhəmiyyət kəsb edən mesajları uğurla hər kəsə ötürə bilirdi.

Karikatura nümunələrinə ilk dəfə Annibale Carraccinin əsərlərində rast gəlinir. Bu sənətlə bağlı çəkilən ilk rəsmlərdən biri 1748-ci ildə Vilyam Hoqartın "Qədim İngiltərənin qızardılmış mal əti" adlı böyük antifransız satirası ilə bağlı olmuşdur. Burada mal ətinin limandan digər tərəfə daşınması təsvir edilib. Bu mənzərəyə bir neçə fransız əsgərinin aclıqla baxmaları onların halından xəbər verirdi. Hoqart isə özünü sol küncdə çiynində əsgər əlinin olduğu formada işıqlandırmışdı.

O, bu şəkli həbsindən sonra ərsəyə gətirmişdi. Fransaya səfəri zamanı Calaisdə gözləyərkən ingilis silahları ilə bəzədilmiş liman qapısı və asma körpünün eskizini çəkməyə başlamışdı. Onun bu davranışı diqqət çəkərək şübhə doğurmuşdu və həbs edilərək qubernatorun hüzuruna aparılmışdı. Burada olarkən fransızların təkidi ilə karikaturalar çəkərək bacarıqlarını nümayiş etdirməsini ondan tələb etmişdilər. Hoqartın fransızlara qarşı antipatiyası bu hadisələrdə daha da kəskinləşmişdi.

Sonrakı dövrlərdə qəzet və jurnallarda karikaturalara daha çox rast gəlinir. XIX əsrdə Ceyms Gillrayın siyasi rəsmlərini gündəlik çıxan qəzetlərdə görmək mümkün idi. Çarlz Fliponun karikaturaları isə sərt qaydaların tətbiqinə səbəb olmuşdu. O, "La Caricature" jurnalının sahibi idi və tez-tez kral Lui-Flippi armud formalı üzü ilə təsvir edirdi. Bu, kral üçün təhqiramiz hərəkət olduğundan Fransada mətbuat azadlığı ilə bağlı qanunun qəbul edilməsi ilə nəticələnmişdi. Qanuna əsasən siyasi karikaturaların təsvirinə qadağa qoyulmuşdu.

Karikaturalar hazırda da kiyafət qədər populyardır, jurnallarda və sosial platformalarda məşhurların, siyasətçilərin əsl obrazlarını, eləcə də ümumi vəziyyəti ifadə edən rəsmləri görmək mümkündür. Bu yolda təkmilləşərək dəyişən isə rəssamın alətləridir. Başlanğıcda karikaturaçılar ideyalarını karandaş, qələmlə əks etdirdikləri halda, bu gün "Adobe İllustrator" və ya "Corel Painter" kimi qrafik proqramlar onların işlərini rəqəmsallaşdırıb.

# Barmaq izi

**Barmaq izləri şəxsi identifikasiyanın etibarlı vasitəsidir. Bu, fərqli adlardan istifadə edərək əvvəlki cinayətlərini gizlətmək istəyən insanların müəyyənləşdirilməsində xüsusi əhəmiyyətə malikdir. Elə bu məqsədlə də tətbiq olunmağa başlanmışdı.**



Tarixdə barmaq izinə aid müxtəlif dövrlərin qeydləri mövcuddur. Ən erkən məlumat Çində Sin sülaləsinin dövründə, yəni eramızdan əvvəl 200-cü illərdə oğurluq araşdırmaları zamanı əl izlərindən istifadə edilməsi ilə bağlıdır. Dövrümüzün Orta əsrlərində Xacə Rəşidəddin Fəzlullah Həmədaniyə aid edilən farsca yazılmış Ümumbəşəri tarix kitabında şəxslərin barmaq izlərindən müəyyən edilməsi praktikası ilə bağlı məlumatlar var.

İlk dəfə barmaq izindən istifadə edən şəxs isə 1858-ci ildə Ceyms Herşel olub. Hindistanda baş həkim olan Herşel iş adamı Rajyadhar Konai ilə müqavilə bağlayan zaman onun əl izini çəkdirmişdi. Bunu etməkdə məqsədi qarşı tərəfi müqavilədən imtina etdiyi təqdirdə onu barmaq imzası ilə qorxutmaq idi. Sonrakı vaxtlarda Herşel yerli sakinlərlə bağlanan hər müqavilədə şəhadət və orta barmaqların izlərini tələb etməyi vərdişə çevirmişdi. Bu izləri sənədlə müqəddəs şəxsi bağlılıq hesab edən insanlar ondan bügünkü əsas funksiyasını dərk etmədən istifadə edirdilər.

Barmaq izlərinin hər hansı obyektdə qaldığını və bunun vasitəsilə bir çox cinayətin üstünün açıla biləcəyini isə ilk dəfə Tomas Taylor irəli sürmüşdü. Mikroskoplar üzrə peşəkar olan amerikalı alim bildirirdi ki, bunu tutulan şübhəlilər üzərində sınaqdan keçirmək əlverişli olar. Həmin şəxslərdən alınan izlərlə hər hansı əşyanın üzərində qalan izin müqayisəsi həqiqi cinayətkarın həbs olunması üçün şərait yarada bilər. Bundan sonra yayılan tendensiya bir çox dövlətlərdə uğurla tətbiq edilərək təhqiqatçıların işini asanlaşdırmışdı.

Frensis Qalton 1892-ci ildə izlərin fərdiliyini təyin edən "Barmaq izləri" adlı kitabını nəşr edib. Qaltonun hesablamalarına görə, iki ayrı barmaq izinin eyni olma ehtimalı 64 milyard insanda bir idi. O, Herşel və Fauldsun iddialarını elmi şəkildə sübut edə bilmişdi; barmaq izi fərdin həyatı boyu dəyişmir və hər bir iz yalnız şəxsin özünə məxsusdur. Hazırda şəxsi sənədlər alınarkən barmaq izinin götürülməsi zəruri tələblər sırasındadır. Bununla da sistemdəki qeydiyyat kimliyi asanlıqla müəyyənləşdirməyə şərait yaradır. Məxfiliyin qorunması məqsədilə müxtəlif əşyalarda barmaq izi ilə açılan şifrələrdən istifadə edilir.

# Dünyanın ilk işıqforu

**Hər gün bəlkə də dəfələrlə rastlaşdığımız işıqforların yol qaydalarının tənzimlənməsində əhəmiyyəti olduqca böyükdür. 3 işıqlı bu vasitənin sayəsində baş verə biləcək yol qəzalarının qarşısı alınır, qarışıqlıq yaranmadan avtomobillər öz istiqamətləri üzrə rahat hərəkət edə bilirlər. Amma işıqfor yaranan zaman bugünkü qədər sadə və asan idarə funksiyalarına sahib deyildi.**



Dünyanın ilk işıqforunun "doğum tarixi" 10 dekar 1868-ci ildir. O, həmin tarixdə Londonun Parlament meydanında quraşdırılmışdı. İdeyanın əsası dəmir yolunda mövcud olan işıq sistemindən gəlirdi. Britaniya dəmir yollarının mühəndisi Con Pik Nayt yol hərəkətində bu işıqlı sistemdən istifadə fikri ilə Metropoliten polisinə müraciət etmiş və onun təklifi qəbul edilmişdi. Bu vasitənin işıqları əllə idarə olunan iki rəngdən (qırmızı və yaşıl) ibarət idi. Lakin iki aydan sonra işıqforun fəaliyyəti partlayışla sonlandı. Nəticədə onu idarə edən polis ciddi yanıq xəsarətləri aldı.

Elektrik enerjisindən istifadəyə qədər işıqforların kütləviləşməsi baş vermədi. Yalnız 1914-cü ildə Ohayo ştatının Klivlend şəhərində işıqforun ilk elektrikli versiyasına rast gəlinib. 2 rəngdən əlavə 3-cü - sarı rəngin işıqfora əlavə edilməsi isə 1919-cu ilə aiddir. Sarı rəngin bu yol nişanına salınmasından öncə bir çox yol işarələri sarı rəngdə tərtib edilirdi. Bunun səbəbi gecələr bu rəngin qırmızıdan daha aydın seçilməsi idi. İşıqfordakı sarı rəng xəbərdarlıq mənasını daşıyır. Bu nümunələrdə də rəngləri dəyişdirmək üçün düyməni basan və ya açarı çevirən insana ehtiyac var idi. İnsan gücü tələb edən bu üsul da arzuolunan nəticəni vermirdi.

1920-ci ildə işıqforlara gətirilən avtomatlaşdırılmış üsul vəziyyəti dəyişmiş və hazırkı formalarının ilkin təəssüratını yaratmışdı. Keçən dövrlər ərzində müşahidə edilən problemlər aradan qaldırılmışdır. Üç rəngin əsas sirri isə ən uzun spektr dalğasına sahibliyi və palitranın ən uyğun çalarları olmasıdır.

# Satış hiyləsi

**Maraq və cəlbediciliyin lazımi bir nöqtədə cəmlənməsi üçün tətbiq edilən, təbliğatın bir növü olan reklam hazırda bir çox müəssisələrin əsas silahıdır. Bu sahə hər nə qədər cavan görünsə də, yaşı bir o qədər çoxdur.**

Mənbələrdə reklamlardan hansı tarixdən etibarən istifadə olunduğuna dair dəqiq məlumatlara rast gəlinmir. Lakin reklamın ən erkən formasının şifahi olaraq mövcud olduğu şübhəsizdir. Buna ən bariz misalı bazarlarda öz məhsullarını alıcılara təqdim edən satıcıların müxtəlif tərifli cümlələrlə mallarını tanıtmaqlarını göstərmək olar. Bir müddət sonra aydın oldu ki, bu üsuldan fərqli olaraq hər hansı simvol və ya bayraqlarla diqqəti cəlb etmək daha səmərəli nəticələrin əldə olunmasına imkan verir. Bununla da reklamın inkişaf mərhələsi başladı və həm yazılı, həm də şəkilli reklam ortaya çıxdı.




Dünyanın ilk yazılı reklamı Misirdə Teben xarabalıqlarından tapılıb. Bu reklam elan formasında idi. Eramızdan əvvəl 3 mininci ilə aid papirus üzərində qullarından birini tapmağa çalışan quldarın çatdırmaq istədiyi mesaj yer alırdı. Burada Şem adlı qulun toxuculuqla məşğul olan ustasından qaçdığı və onu tapan şəxsə pul mükafatı veriləcəyinə dair məlumatlar, eyni zamanda görkəmi ilə bağlı detallar əks olunmuşdu. Tapılan digər bir papirusdakı qeydlərə görə Şem heç vaxt tapılmayıb. Bu elan reklamın ilkin forması hesab edilir.

Qədim Romada reklamlar küçə divarlarına qrafiti formasında həkk olunurdu. Əsasən hər hansı məlumatı çatdırmaq xarakteri daşıyırdı. Orta əsrlərin əvvəllərindəki reklamlar antik dövrdə olanlardan demək olar ki, fərqlənmirdi. Bu da onu göstərir ki, illər, hətta əsrlər boyu reklamın inkişafına heç nə təsir etməyib. Yalnız kapitalist dəyərlərin meydanlarda görünməsi xüsusi dəyişikliklərə səbəb olub.

Müasir reklamın ən erkən müəyyən edilmiş nümunəsi "ağ dovşan" loqolu posterdir. Üzərində "Jinan Liu Ailəsinin Keyfiyyətli İynə Dükanı" yazısı qeyd olunmuş, aşağı hissəsində "Biz yüksək keyfiyyətli polad çubuqlar alıb davamlı incə iynələr düzəldirik ki, hər zaman istifadəyə hazır olaq" şüarı yer alan reklam hazırkı nümunələrdən heç də ciddi fərqlənmir.

Reklam tarixində ən böyük inqilab mətbuatın yaranması ilə baş verdi. Mətbuatda yer alan reklamların günbəgün yenilənməsi müxtəlif ideya və versiyalara yol açırdı. Bu inkişaf isə reklamı milyonlarla dollar dəyərində sənayeyə çevirdi.

# Süni şəlalələr

**Dünyada fontan olmayan bölgələr demək olar ki, yoxdur. Bu, insan yaradıcılığı olan ilk abadlaşdırma növü sayıla bilər. "Fontan" sözü latın dilindəki "fontana" sözündən yaranıb. Mənası "mənbə", "bulaq" kimi tərcümə olunur.**

Sivilizasiyanın varlığını göstərən fontanların tarixi bir çox kəşfin beşiyi olan Mesopotamiyaya dayanır. Eramızdan əvvəl 2 mininci ildə burada bulaqların hövzələrinə dəyişiklik edilərək təbii yolla fontan yaradılıb. Həmin fəvvarələr indiki görünüşə sahib deyildi. Bilinən ən qədim fontandan əsasən suvarma və içməli su təchizatı kimi istifadə edilirdi. Müasirlərinin əcdadı sayılan bu növlər Misirdə də mövcud idi. Misir freskolarında bağ və əkin sahələrində təsvir olunan fontanları görmək mümkündür. Qədim fars qanunlarında su hər bir bağın məcburi atributu sayılırdı. Buna görə də bağlarda fəvvarələr, çay və şəlalələr getdikcə populyarlaşırdı.

Fəvvarələrin bir mədəniyyət kimi inkişafı yunan və romalılarla sıx bağlıdır. E.ə 6-cı əsrdə yaradılan "şırnaq" ilk dekorativ fontan sayılır. Tarixçilərin sözlərinə görə, Afina, Korinf və digər qədim yunan şəhərlərindəki nümunələrə bulaqlardan və çaylardan su kəmərləri çəkilib. Onlar həmçinin içməli su problemini də həll edib. Belə ki, Afina tiranı Pisistratus tərəfindən meydanda salınan fəvvarə yerli sakinləri içməli su ilə təmin edirmiş.

Yunan fontanları daşdan və mərmərdən hazırlanırdı. Su bürünc borulardan axır və əsasən aslan başını və ya başqa heyvanı təmsil edən heykəllərin ağzından çıxırdı. Yunanıstandakı süni şəlalələrdə su cazibə qüvvəsi ilə axırdı. Bir çox hallarda bu, suyun gur olmasına mane olurdu. Axını sürətləndirmək üçün xüsusi nasoslardan istifadə gözoxşayan mənzərə yaradırdı. Sonrakı vaxtlarda bütün Avropaya yayılan fontanlar bağlarla yanaşı, sarayların daxilində də tikilirdi.



Fəvvarələrə incəsənət nümunəsi kimi yanaşılması ona diqqəti daha da artırmışdı. XVI-XVII əsrlərdə İtaliyanın bir çox şəhərində xüsusi təsvirli heykəllərin yer aldığı möhtəşəm su şırnaqlarına rast gəlinib. Hələ də şəhər dəbi sayılan fontanlara qiymət verilir və onlar dekorativ əhəmiyyəti ilə seçilir. Dünyanın ən böyük fəvvarəsi isə Dubayda yerləşir. O, hətta tikilməmişdən əvvəl Ginnesin Rekordlar Kitabına daxil edilmişdir.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




## Himalay zirvələrində 5G antenləri yerləşdirilib



"Huawei" şirkəti 5G ilə hazırda şəbəkə ekosistemdə liderdir. Müxtəlif ölkələri 5G antenaları ilə təmin edən çinlilər bu dəfə daha bir maraqlı addım atıblar. "Huawei" "China Mobile" ilə birlikdə Himalay dağlarının ən yüksək zirvəsi olan Everestə 5G antenaları yerləşdirib. Antenalar yerdən 5800 metr hündürlükdədir.

Səkkiz ton ağırlığında olan cihazları bu yüksəkliyə qaldırmaq elə də asan olmayıb. Bu işə 150 fəhlə-alpinist cəlb olunub. Aparılan sürət testlərinin nəticələrində hətta bu yüksəklikdə belə 1 Gbps sürətə çatmaq mümkün olub. Növbəti hədəfi isə 6500 metr yüksəkliyi fəth etməkdir.

Məlumat üçün deyək ki, 2013-cü ildən bu yana Everestdə 4G şəbəkəsi üçün antenlər fəaliyyət göstərir. Bunun nəticəsində Himalaya çıxan alpinistlər və turistlər HD videolar çəkərək onları rahatlıqla paylaşa bilirlər.

# İnsanabənzər robot

**Bütün dünyanı son vaxtlar texnoloji cəhətdən mükəmməl və əsl texniki inqilab sayılacaq məhsulları ilə heyrətə gətirən Amerikanın "Tesla" şirkəti daha bir ixtirasını təqdim edib.**

"The Wall Street Journal" tərəfindən keçirilmiş tədbirdə çıxış edən şirkətin qurucusu və sözün həqiqi mənasında dahi novator adlandırılan İlon Mask bildirib ki, "Tesla Bot" adlandırılan insanabənzər robotlar əmək bazarında məhsuldarlığı yüksək səviyyəyə qaldıracaq, əhali azalması faktorunu kompensasiya edəcək.

Mask onu da bildirib ki, proqram təminatı nöqteyi-nəzərindən "Tesla" artıq robototexnika sahəsinə aid olan şirkətdir. Belə ki, şirkətin elektromobilləri 4 təkərə sahib robotlar rolunda çıxış edirlər və onlar avtomatik şəkildə hərəkət etmək qabiliyyətinə malikdirlər. Faktiki olaraq insana bənzəyən robotu yaratmaq üçün sadəcə yeni növ hərəkət mexanizmlərini yaratmaq və proqram təminatını spesifik tapşırıqlar üçün uyğunlaşdırmaq lazımdır.



"Tesla Bot"un təqdimatı zamanı Mask qeyd edib ki, sözügedən robotun ilk prototipləri 2022-ci ildə hazır olacaq.

Maskın fikrincə, çox zaman peşəkar mütəxəssislər çatışmır və problem yüksəkixtisaslı kadrların getdikcə azalması, əslində, ümumi əhali sayının azlığından qaynaqlanır. Əgər insanlar çoxlu sayda uşaqlara sahib olmasalar, insan sivilizasiyası məhv ola bilər. Müəyyən müddətdən sonra "Tesla Bot" bir çox sahədə insanın əl əməyini əvəz edə biləcək.

# Aviasiya üçün yeni təhlükə yarana bilər



ABŞ Mülki Aviasiyası üzrə Federal İdarəetmə Agentliyi (FAA) bildirib ki, müəyyən olunmuş diapazonda çalışan 5G təchizat sistemləri tərəfindən müdaxilələr uçuşları təhlükə altına ala və təxribatlara imkan yarada bilər. Aviasiya təmsilçiləri və FAA mütəxəssisləri daha öncədən 3.7-3.98 GHz diapazonlarda çalışan 5G təchizatlarının yarada biləcəyi problemlər barədə narahatlıqlarını bununla izah edirlər ki, bu cür diapazonda çalışan 5G-lər yüksək həssaslığa malik aviasiya cihazlarına dağıdıcı təsir göstərə bilərlər. Buna radio yüksəklikölçən aparatlarını misal göstərmək olar. Bu səbəblə də "AT&T" və "Verizon" mobil operatorları noyabr ayında bu cür 5G şəbəkələrin istifadəyə verilməsini 2022-ci ilin 5 yanvar tarixinədək təxirə salmağı qərara aldılar.

FAA öz növbəsində yerüstü mənbələrdən müəyyən diapazonda siqnalların olduğu halda radio yüksəklikölçən aparatlarının təyyarələrdə və helikopterlərdə istifadəsini qadağan edib. Belə siqnallar anormal davranışların yaranmasına gətirib çıxara bilər və bu, adətən uçuş obyektinin daha aşağı hündürlükdə olduğu zaman baş verir. Agentlikdən bu da bildirilib ki, 5G şəbəkələrinin geniş yayılması öz növbəsində aviasiya sahəsinin tələblərinə uyğunlaşdırıla bilər. Hazırda bu məsələ ətrafında Federal Rabitə Komissiyası, Ağ ev və bu sahənin təmsilçiləri ilə məsləhətləşmələr aparılır.

# "Teleqram" yenilikləri

**Mesajlaşma sistemi olan "Teleqram"ın növbəti yeni versiyasında reallaşdırdığı funksiyaların bir hissəsi açıq qrupları, digər hissəsi isə fərdi yazışmaların konfidensiallığının yaxşılaşdırılmasını əhatə edir.**

Bundan əlavə, həm iOS, həm də Android istifadəçiləri üçün xüsusi funksiyalar istifadəyə verilib. Nəzərəçarpan əsas yeniliklərdən biri də qruplarda və kanallarda olan kontentlərin qorunmaları sistemidir. Bundan sonra qrupların və kanalların yaradıcıları paylaşılan foto və videoların abunəçilər tərəfindən yaddaşda saxlanmasını, paylaşılan mesajların digərlərinə göndərilməsini əngəlləyə bilərlər. Fərdi çatlardakı mesajların tarixçələrinin silinməsi üzrə funksiyanın imkanı daha da genişləndirilib. Belə ki, mesajların tarixçələrini konkret gün və ya zaman intervalı üzrə silmək mümkündür.

Messencerin ayarlar bölməsinə "Teleqram"dan istifadə seansının idarəsi funksiyası da əlavə edilib. İstifadəçilər xüsusi düyməyə klikləməklə "Teleqram"a desktop tətbiq edə və ya brauzer üzərindən sürətlə daxil ola, hətta istifadəçilər aktiv olmayan zaman intervalını təyin edə biləcəklər. Bu halda messencerin bütün aktiv istifadə seansları seçilmiş zaman intervalı üzrə deaktiv olacaq. Həmçinin hər bir cihaz üçün səsli zənglərin qəbulu ilə gizli çatların işə salınması funksiyasını ayarlamaq mümkündür. Açıq qrupların və kanalların müəllifləri bir-birinin hesablarından istifadə edərək mesajların göndərilməsini reallaşdırmaqla öz əsas hesablarına diqqət çəkməkdən azad olacaqlar. İstifadəçinin bu və ya digər qrup ilə kanala abunə olmaq sorğusunu göndərdiyi halda, həmin istifadəçi ilə admin əlaqəyə girərsə, çatın yuxarı hissəsində adminin adı deyil, sorğunun göndərildiyi qrup və ya kanalın adı əks olunacaq.




Hələ bu da hamısı deyil. Android istifadəçiləri daha öncə yalnız fərdi yazışmalarda mövcud olan imkanları bütün "Teleqram"a tətbiq edə biləcəklər. Bununla yanaşı, bəzi cihazlarda SMS təsdiq olmadan şəxsi hesaba daxil olmaq imkanı yaradılıb. Bu halda SMS təsdiq əvəzinə "Teleqram" tərəfindən edilən zəngdə əks olunmuş nömrənin son rəqəmlərini daxil etmək lazım gələcək.

"iOS 13" və daha yuxarı versiyaların istifadəçiləri üçün ingilisdilli mətnlərin təyin edilməsi funksiyası vasitəsilə iOS istifadəçiləri qəbul edilmiş və ya göndərilmiş fotolardakı mətnləri təyin etmək və kopyalamaq imkanı qazanacaqlar. İstifadəçilərin, qrupların və kanalların "iOS"dakı profilləri "iOS 15" standartlarına əsasən yeniləniblər.

Sözügedən yeni versiya artıq "Android" və "iOS" istifadəçiləri üçün aktivdir.

# "İnstaqram" uşaqlar üçün təhlükəsiz olacaq

**"İnstaqram" azyaşlı istifadəçiləri üçün təqdim edilən mövzular üzərində idarəetməni sərtləşdirdiyini elan edib. Şirkətdən bildiriblər ki, bir mövzu ətrafında olan fikirlərini cəmləmiş istifadəçilər digər mövzulara yönəldiləcək.**



"İnstaqram"ın rəhbəri Adam Mosseri ABŞ Senatında uşaqların sosial şəbəkə tərəfindən qorunması ilə bağlı dinləmələrdə sualları cavablandırıb. O bildirib ki, bundan sonra yetkinlik yaşına çatan istifadəçilər öz abunəçiləri siyahısında mövcud olmayan yeniyetmələri işarələyə (tag) bilməyəcəklər. Bundan əlavə, gələn ilin yanvar ayından başlayaraq "İnstaqram"ın gənc istifadəçiləri toplu şəkildə öz paylaşımlarını, bəyənmələri və rəylərini silə biləcəklər. "İnstaqram" azyaşlı istifadəçilər üçün zərərli mövzuların məsləhət görülməsini də aradan qaldırmağı nəzərdən keçirir. Buraya həmçinin "həştəq"lər və ya digər üsullarla axtarılan mövzular da daxildir.

Artıq bir neçə gündür ki, ABŞ, Böyük Britaniya, Kanada və Avstraliyada "İnstaqram"da "Take a Break" adlı funksiya fəaliyyətə başlayıb. Bu funksiya "İnstaqram"dan aşırı istifadə zamanı istifadəçilərə fasilə verməyin lazım olduğunu bildirəcək. Gələn ilin martından isə azyaşlı istifadəçilərin valideynlərinə və digər təmsilçilərinə xüsusi tətbiqlər yönləndiriləcək. Onların sayəsində valideynlərin uşaqların bu sosial şəbəkədə nə qədər zaman keçirdiklərini öyrənməsi və zaman limitini müəyyən etməsi mümkün olacaq.

# "Gmail"də audio və video zənglər mümkün olacaq

**"Google" şirkəti "Gmail" tətbiqində audio və videozənglər funksiyasını təqdim edib. Funksiya "Gmail"in Android və iOS versiyalarında istifadəyə veriləcək.**



Qeyd etmək lazımdır ki, "Gmail" üzərindən zənglər əvvəllər də mövcud idi. Lakin o, "Google Meet" üzərindən reallaşdırılırdı. Bu səbəbdən də zəng edən insanlar onu reallaşdıran şəxs tərəfindən generasiya edilən xüsusi linkə daxil olmalı idilər. İndi isə istifadəçi öz kontaktlar siyahısından hər hansı bir şəxslə audio və ya videozəng üzərindən ünsiyyət qurmaq istədikdə sadəcə olaraq lazımi düyməyə toxunacaq. Bu, çox rahat üsuldur. Belə ki, istifadəçilər xüsusi dəvət linklərini yaratmalı olmayacaqlar. Zəngləri "Google Chat" üzərindən reallaşdıran istifadəçilər avtomatik olaraq "Gmail"ə yönləndiriləcəklər. Bu da o deməkdir ki, "Google" şirkəti "Gmail" servisini öz kommunikasiya mərkəzinə çevirəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## "Apple" yeni məhsullar təqdim edəcək




**"Apple" şirkətinin analitiki Ming Çi Kuo növbəti 2 il üçün planlaşdırılan məhsullar barədə hesabat təqdim edib.**

Bu məhsullar siyahısına yeni "iPhone SE" modeli ilə yanaşı, virtual reallıq cihazı və yeni "Apple Watch" modelləri daxildir. Analitikin sözlərinə görə, şirkət 3 "Apple Watch" modelini təqdim edəcək. Onlardan birincisi sadələşdirilmiş "Watch SE", ikincisi idman modeli, üçüncüsü isə daha dözümlü gövdəsi olan cihaz olacaq. Bununla yanaşı, şirkət gələn il naqilsiz "AirPods Pro 2" qulaqcıqlarını da təqdim edəcək. Daha yaxşı səsləndirmə imkanına malik bu qulaqcıqlar istifadəçinin səhhətinin monitorinqini də aparacaq.

"Apple AR" və "VR" texnologiyalarını özündə birləşdirən cihaz yeni ildə alıcıları sevindirəcək. Sözügedən cihaz 2 prosessorla təchiz olunub, ilk növbədə, mobil oyun həvəskarları və multimedia kontingenti nəzərdə tutulub.

Analitik bildirib ki, 2023-cü ilin əvvəlində yeni "iPhone SE" modelinin təqdimatı gözlənilir. Güman olunur ki, yenilənmiş bu model daha keyfiyyətli ekrana və 4GB RAM-a sahib olacaq. Bundan əlavə, smartfonun 5G dəstəyi əldə edəcəyi də gözlənilir. Bu smartfonun 2023-cü ilin mart-aprel aylarında satışa çıxarılması planlaşdırılır.

# Azərbaycan Respublikası və Tatarıstan Respublikasının elektrik şəbəkə şirkətləri arasında əməkdaşlıq sazişi imzalanıb

"Azərişıq" ASC-nin İdarə Heyətinin sədri Vüqar Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Tatarıstana işgüzar səfər edib. Səfərin məqsədi "Setevaya Kompaniya" ASC ilə rəqəmsal texnologiyaların elektrik şəbəkələrində tətbiqi perspektivləri və gərginlik altında iş üzrə təcrübə mübadiləsi aparmaq olub.

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, səfərin ilk günü V.Əhmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkənin elektroenergetika sahəsində aparılan genişmiqyaslı yenidənqurma və müasirləşdirmə istiqamətindəki islahatları Tatarıstan Respublikasının energetiklərinin diqqətinə çatdırıb. Eyni zamanda şirkətin bir neçə filialında (Kazan şəhəri və Vısokaya Qora xidmət ərazisində), həmçinin "Enerqorazvitie" Mühəndislik Mərkəzində və "PromEnerqo" MMC-də - respublika enerji klasterinə daxil olan müəssisələrdə görülən işlərlə tanışlıq, yerli mütəxəssislərlə fikir mübadiləsi aparılıb. Səfərdə qonaqları "Setevaya Kompaniya" ASC-nin baş direktoru İlşat Fardiyev müşayiət edib.

Nümayəndə heyətinin üzvləri üçün Kazan elektrik şəbəkələrində Mərkəzləşdirilmiş Dispetçer Sisteminin idarəetmə mərkəzinə ekskursiya təşkil olunub. Burada iki səviyyəli şəbəkə idarəetmə sistemi, elektrik şəbəkəsi obyektlərinin məsafədən idarə edilməsi və monitorinqinin yeni imkanları haqda geniş məlumat verilib.

Rəqəmsal texniki həllərin tətbiqi ilə bağlı fikir mübadiləsi, Tatarıstan Respublikasında ilk rəqəmsal yarımstansiya olan 110 kV-luq "Portovaya" Yarımstansiyasına, eləcə də Kazan şəhərində "Smart Grid" proqramı ilə əlaqələndirilmiş "RP-9" paylama məntəqəsinə səfər çərçivəsində davam etdirilib.

"Setevaya Kompaniya" ASC-nin baş ofisində Tatarıstan elektroenergetika şirkətinin fəaliyyəti ilə bağlı nəzəri fikir mübadiləsi aparılıb. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədovun rəhbərlik etdiyi energetiklər qrupu şirkətdə aparılan operativ və texnoloji idarəetmə islahatına uyğun olaraq, yenilənmiş Şəbəkə İdarəetmə Mərkəzinə də baxış keçirmiş, enerji sisteminin rejimlərinin idarə olunmasında SK-11 - müasir SCADA İdarəetmə Sisteminin istifadə səmərəliliyini yüksək qiymətləndirmişlər.

Azərbaycandan olan nümayəndə heyətinin üzvləri şirkətdə həyata keçirilən "Energiya" İstehsalat Sisteminin nəticələri ilə tanış olublar. Bildirilib ki, Yaponiya şirkətinin mütəxəssisləri tərəfindən aparılmış auditin nəticələrinə əsasən, İstehsalat sistemi dünya meyarlarına uyğunluq üzrə bürünc səviyyə əldə edib. Həmçinin Tatarıstanda tətbiq olunmağa başlayan gərginlik altında işləmə texnologiyası ilə nümayəndə heyətinin real şəraitdə tanış olması məqsədilə Vısokogorskiy RES ərazisində 10kV-luq HEVX-də aparılan yenidənqurma işləri təqdim edilib. Məlumat verilib ki, bu müasir iş texnikası təmir-bərpa işlərinin gərginlik altında, elektrik enerjisi verilişində fasilə yaratmadan aparmağa imkan verir.

Növbəti görüş əsnasında nümayəndə heyətinə şirkətin Tatarıstan Respublikasının elektrik şəbəkəsinin virtual modeli olan "Rəqəmsal təkrarı" - Vahid Avtomatlaşdırılmış Proseslərə Nəzarət Sistemi haqqında geniş məruzə edildi.

İstehsalat və elektroenergetika obyektlərinə səfərlər başa çatdıqdan sonra "Azərişıq" ASC ilə "Setevaya Kompaniya" ASC arasında əməkdaşlıq müqaviləsi imzalanıb. "İqlim şəraitinin fərqliliyinə baxmayaraq, bizim çoxlu ortaq təmas nöqtələrimiz var - bu yaxınlarda Azərbaycan Respublikasına səfərimiz zamanı həmkarlarımızın yüksək səriştələrinə əmin olduq. Bugünkü sənədin imzalanması qarşılıqlı əməkdaşlıq - qabaqcıl təcrübənin tətbiqi və hər iki şirkət mütəxəssisləri arasında təcrübə mübadiləsi üçün geniş imkanlar yaradır", - deyən İlşat Fardiyev iki ölkə arasında elektroenergetika sahəsində əlaqələrin yaranmasını və gələcəkdə də inkişaf etdirilməsini yüksək qiymətləndirdi. Vüqar Əhmədov, öz növbəsində, səmimi qəbula və səfərin məzmunlu zəngin proqramına görə "Setevaya Kompaniya" ASC-nin bütün kollektivinə təşəkkürünü bildirib, ikitərəfli münasibətlərin bundan sonra da davam edəcəyinə və gələcək inkişafı üçün yeni imkanlar qazanacağına əminliyini ifadə etdi.

# Azərbaycan məktəblilərinin beynəlxalq olimpiadada növbəti uğuru

## "Azercell"in dəstəklədiyi şagirdlər informatika üzrə yüksək nəticələr nümayiş etdirməkdə davam edirlər

Azərbaycanlı məktəblilər beynəlxalq bilik yarışmasında növbəti dəfə fərqlənməyi bacarıblar. Moskvada keçirilən VI Meqapolislər Olimpiadasında ölkəmizi təmsil edən komanda 1 gümüş və 4 bürünc medal olmaqla, ümumilikdə 5 medal əldə edib. "Azercell"in dəstəyilə hazırlığı həyata keçən Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin XI sinif şagirdi Səid Nəsibov informatika fənni üzrə bürünc medala layiq görülüb.

Rusiya paytaxtında təşkil edilən bilik yarışmasına dünyanın ən böyük şəhərlərindən 14-18 yaşlı şagirdlər qatılıblar. Ümumilikdə, olimpiadada 32 ölkədən 257 məktəbli bilik və bacarıqlarını sınayıb. Azərbaycanı riyaziyyat, fizika, kimya və informatika fənləri üzrə yarışan 8 iştirakçı təmsil edib. Sevindirici haldır ki, şagirdlərimiz hər fənn üzrə uğurlu nəticə nümayiş etdiriblər. Bakı məktəbliləri 5 medal qazanmaqla yanaşı, blits turda komanda olaraq üçüncü yerin mükafatçısı olublar.

Xatırladaq ki, beynəlxalq olimpiadalarda iştirak üçün informatika fənni üzrə milli komandaların hazırlıq prosesi 2017-ci ildən etibarən Təhsil Nazirliyi və İnformatika üzrə Milli Olimpiada komandasının məğrur tərəfdaşı "Azercell Telekom" MMC-nin dəstəyilə həyata keçirilir. AR Təhsil İnstitutu və "Azercell Telekom" MMC arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, ölkənin hər yerindən istedadlı şagirdlər "Azercell"in tərəfdaşlığı ilə təşkil olunan xüsusi mərkəzlərdə İnformatika fənni üzrə Beynəlxalq Olimpiadalara hazırlaşırlar. "Azercell" şirkəti indiyədək onlarca şagirdi hazırlıq prosesinə cəlb etməklə onların öz potensiallarını nümayiş etdirməsinə imkan yaradıb. Hazırlıqdan keçən şagirdlərimiz dəfələrlə mötəbər bilik yarışlarında yüksək nəticələr əldə ediblər və demək olar ki, hər yarışdan medalla qayıdıblar. Azərbaycanlı məktəblilər bu müddətdə müxtəlif miqyaslı beynəlxalq olimpiada və müsabiqələrdə 1 qızıl, 7 gümüş və 19 bürünc olmaqla, ümumilikdə, 27 medal əldə ediblər.

"Azercell Telekom" gənclər arasında İKT sahəsində təhsilə marağın və texnoloji savadlılığın artırılması istiqamətində həyata keçirdiyi sosial layihələri davam etdirir, Azərbaycan bayrağını yüksəklərdə dalğalandıran bütün tələbə və şagirdlərimizə uğurlar arzu edir!

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# "YeloBank" ASC-nin səhmdarlarının nəzərinə!

28 dekabr 2021-ci il tarixdə saat 11:00-da Bakı şəhəri, AZ1122, Həsən bəy Zərdabi küçəsi 81k ünvanında yerləşən "YeloBank" ASC-nin baş ofisində keçirilməsi nəzərdə tutulan Səhmdarların növbədənkənar Ümumi Yığıncağının keçirilmə ünvanı 119019 Moskva, Znamenka 8/13 ünvanına dəyişdirilmişdir. Əvvəlcədən təqdim edilmiş bildirişdəki digər məlumatlar (vaxt və gündəlikdə olan məsələlər) ilə bağlı hər hansı dəyişiklik nəzərdə tutulmamışdır.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və səlahiyyəti təsdiq edən müvafiq sənədlərin təqdim edilməsi xahiş olunur.

***"YeloBank" ASC-nin Müşahidə Şurası***

# "Azərenerji"də qanvermə aksiyası keçirilib





Dünən Milli Hematologiya və Transfuziologiya Mərkəzinin təşəbbüsü, "Azərenerji" ASC-nin təşkilatçılığı ilə talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqlara kömək məqsədilə könüllü qanvermə aksiyası keçirilib.

Qeyd edək ki, 2005-ci ilin fevral ayında Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva insanların həyatlarını xilas etmə yönündə nəcib təşəbbüslə "Talassemiyasız həyat naminə" proqram layihəsinin başlanmasını elan edib və həmin gündən başlayaraq, "Azərenerji" ASC də bu layihənin ən fəal davamçılarından birinə çevrilib.

"Azərenerji" ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin binasında keçirilən qanvermə aksiyasında səhmdar cəmiyyətin 130 nəfərdən artıq əməkdaşı xəstə uşaqların sağlamlığı, onların qanla təmin olunması üçün xoşməramlı və xeyirxah missiyada könüllü iştirak edib.

Qanvermə aksiyası karantin rejiminin tələblərinə uyğun olaraq və təhlükəsizlik tədbirləri nəzərə alınmaqla xüsusi qrafiklə həyata keçirilib.

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Zebra 110 Xİ4 printeri üçün etiketin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə satınalmalar komissiyasının 02 dekabr 2021-ci il tarixli qərarına əsasən **"HALAL-P" MMC** qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti polad burazların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 22 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

# Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün bayram tədbirlərinin təşkili" adlı müsabiqə keçirir

**Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.**
**İştirak haqqı yoxdur.**

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 23 dekabr 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 24 dekabr 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: **(012) 525-41-30 (daxili-5037)**

***Müsabiqə komissiyası***

# BİLDİRİŞ

Elanı 05 noyabr 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalında yerləşdirilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tenderlə əlaqədar Tender komissiyasının 10 dekabr 2021-ci il tarixli qərarına əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün 1 (bir) ədəd nəqliyyat vasitəsinin satın alınması üzrə **"TOYOTA ABSHERON MERKEZI" MMC** qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***







# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi Aparatın baş mütəxəssisi Tural Hüseynliyə atası **RAFİQ MÜƏLLİMİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Megapol" Sağlamlıq Mərkəzinin direktoru Fikrət Əhmədov və kollektivi sağlamlıq mərkəzinin baş həkimi Güloğlan Quliyevə anası **TƏYYARƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

N.Tusi adına Klinikanın kollektivi həkim-qastroenteroloq Firdovsi Mehti oğlu Yaqubova anası **GÜLZAR XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Yusifbəyli və Partnyorları" Vəkil Bürosunun kollektivi iş yoldaşları Tahir Məmmədova atası **ƏLİ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5586
Sifariş 2625
Qiyməti 40 qəpik